QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 057 (5529) 27 **mart** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**




# Tərəqqiyə və inkişafa səs verək!



4

**Bölgələrin sosial-iqtisadi inkişafı dövlətin diqqət mərkəzindədir**



13

**Seçkilərin qalibi uğurlu inkişaf strategiyasının müəllifi olan cənab İlham Əliyev olacaq**



14

**Cənab İlham Əliyevin siyasətinin uğurları prezident seçkilərinin nəticələri əvvəlcədən şərtləndirir**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

27 mart 2018-ci il

# "Azərbaycan bu gün pambıqçılıqla bağlı inkişaf templərinə görə dünyada lider ölkədir"

## *Bərdədə Prezident İlham Əliyevin sədrliyi ilə pambıqçılığın inkişafına dair respublika müşavirəsi keçirilib*

***Martın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bərdədəki Mədəniyyət Mərkəzində pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib. AZƏRTAC xəbər verir ki, Mədəniyyət Mərkəzinin foyesində ölkəmizdə pambıqçılığın inkişafı ilə əlaqədar ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələrin yenidən dirçəldilməsinə həsr olunmuş fotostend nümayiş etdirilib. Dövlətimizin başçısı respublika müşavirəsində giriş nitqi söyləyib. Prezident İlham Əliyev giriş nitqində bildirib ki, 2016-cı ildən başlayaraq Azərbaycanda pambıqçılığa çox ciddi dövlət dəstəyi göstərilir və nəticələr də göz qabağındadır. Qısa müddət ərzində pambıqçılığın sürətli inkişafına nail olunub:***






"Demək olar ki, biz pambıqçılığı Azərbaycanda bərpa edirik. 2016-cı ildə Sabirabad şəhərində, keçən il isə martın sonunda Saatlı şəhərində müşavirələr keçirilmişdir. Bu müşavirələrdə verilən tapşırıqlar yerinə yetirilir. Biz bu tapşırıqların yerinə yetirilməsi nəticəsində gözəl nailiyyətlərə də çata bilmişik. Bu gün isə pambıqçılığa dair üçüncü müşavirə Bərdə şəhərində keçirilir. Bərdənin pambıqçılıqda çox böyük ənənələri vardır. 1970-1980-ci illərdə Bərdə Azərbaycanın ən çox pambıq tədarük edən rayonlarından biri idi. Bərdəlilər yaxşı bilirlər ki, ulu öndər Heydər Əliyev bu sahəyə çox ciddi diqqət göstərirdi və dəfələrlə Bərdədə olmuşdur. Bərdədə pambıqçılıqla bağlı dəfələrlə zona müşavirələri keçirilmişdir. O illərdə Bərdədə pambığın tədarükü 120 min tona çatmışdır.

Bərdə uğurla inkişaf edir. Mən Prezident kimi dəfələrlə Bərdə rayonunda olmuşam. Bu, mənim Prezident kimi Bərdəyə altıncı səfərimdir. Bütün səfərlərdə verilən tapşırıqlar və onların icrası nəticəsində biz Bərdə rayonunda çox ciddi sosial-iqtisadi inkişafa nail ola bilmişik. Rayon uğurla inkişaf edir, abadlıq-quruculuq işləri geniş vüsət almışdır. Bərdə şəhəri gözəlləşir. Kəndlərdə də infrastruktur, yol infrastrukturu yaradılır. Bir neçə yol layihəsi icra edilmişdir. Dünən biz bir kənd yolu layihəsinin açılışını qeyd etdik. Yeni yol layihəsinin icrası ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Digər infrastruktur layihələri uğurla icra edilir. Bərdədə qazlaşdırma 100 faizə yaxınlaşır və demək olar ki, kəndlərin hamısı artıq qaz şəbəkəsi ilə təmin edilibdir. Bir neçə kənd qalıb ki, oraya da qazın verilməsi nəticəsində Bərdədə vətəndaşlar təbii qazla 100 faiz təmin olunacaqlar.

Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Digər məsələlər öz həllini tapır, sosial infrastruktur yaradılır, bir çox məktəblər tikilmişdir. Qarabağ bölgəsində birinci "ASAN xidmət" mərkəzi də məhz Bərdədə yaradılmışdır. Digər sosialyönümlü layihələr icra edilmişdir, Olimpiya Mərkəzi, Müalicə Diaqnostika Mərkəzi, uşaq xəstəxanası tikilmişdir. Yəni, bərdəlilər bütün bu işləri yaxşı bilirlər, bu işlərin fəal iştirakçılarıdırlar. Dövlət tərəfindən bundan sonra da Bərdə rayonunun inkişafına böyük diqqət göstəriləcək. O cümlədən Bərdədə kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlərin görülməsi nəzərdə tutulur.

Əlbəttə ki, kənd təsərrüfatının inkişafında pambıqçılıq xüsusi əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, 1970-1980-ci illərdə Azərbaycanda məhz pambıqçılığa çox böyük diqqət göstərilirdi və o vaxt əkin sahələrinin 22 faizi pambıqçılığa ayrılmışdı. Əlbəttə ki, ondan sonrakı dövrdə biz daha çox ərzaq təhlükəsizliyi məsələləri ilə məşğul olmağa başladıq və pambıqçılığın əkin sahələri azaldı. Biz bu gün bu barədə danışacağıq. Ancaq son iki il ərzində pambıqçılığın bərpası istiqamətində görülən işlər bir daha onu göstərir ki, bu sahənin çox böyük gələcəyi var. Zəhmətkeşlər, fermerlər üçün bunun çox böyük gəliri var. Ölkə iqtisadiyyatı üçün də böyük faydası var.

Qeyd etdiyim kimi, 1970-ci illərdə Azərbaycanda pambıqçılığın sürətli inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. O, 1969-cu ildə hakimiyyətə gələndə Azərbaycanda 300 min ton pambıq tədarük edilirdi. Onun dövründə bu rəqəm 3 dəfə artmışdır və 1981-ci ildə Azərbaycanda bir milyon ton pambıq yığılmışdır. Heydər Əliyev Azərbaycandan gedəndən sonra hər bir sahədə olduğu kimi, pambıqçılıqda da tənəzzül yaşandı və 1990-cı ildə Azərbaycanda pambığın tədarükü bir milyondan 500 min tona düşmüşdür. Müstəqillik dövründə isə pambıqçılıq demək olar ki, məhv olub gedirdi. Bunun bir neçə səbəbi var. Əlbəttə, onu etiraf etməliyik ki, müstəqilliyimizin ilk illərində bizim ciddi maddi imkanlarımız yox idi. Azərbaycan çox ağır vəziyyətdə idi. Xüsusilə, antimilli hakimiyyət - AXC-Müsavat cütlüyünün yarıtmaz və xəyanətkar fəaliyyəti nəticəsində ölkəmiz demək olar ki, dağılırdı. Həm iqtisadi, həm siyasi, həm hərbi böhran ölkəmizi çətin vəziyyətə salmışdı. Hakimiyyətə gəlmiş təcrübəsiz adamlar, ümumiyyətlə, iqtisadiyyat haqqında heç bir biliyə malik deyildilər, o cümlədən kənd təsərrüfatının inkişafı ilə bağlı heç bir iş görülmürdü. Ümumiyyətlə, Azərbaycanda yaşanan xaos, anarxiya, hərc-mərclik imkan vermirdi ki, ölkəmiz inkişaf etsin. Yalnız 1993-cü ildən sonra - xalq Ulu Öndərə üz tutaraq onu hakimiyyətə dəvət edəndən sonra bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da inkişaf dövrü başlamış, islahatlar aparılmışdır. Hesab edirəm ki, o vaxt kənd təsərrüfatının inkişafı ilə bağlı ən önəmli qərar kənd təsərrüfatında işləyənlərin vergilərdən azad edilməsi idi.

Son illər ərzində biz kənd təsərrüfatının inkişafı, xüsusilə ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük nailiyyətlərə imza atmışıq. Bizim son illər ərzində əsas vəzifəmiz ərzaq təhlükəsizliyi məsələləri idi. Çünki sovet vaxtında Azərbaycanda pambıq, üzüm, meyvə-tərəvəz istehsal olunurdu, ancaq əsas ərzaq məhsulları başqa respublikalardan gəlirdi. Ona görə, biz, ilk növbədə, daxili tələbatı yerli məhsullarla təmin etmək üçün işləyirdik, çalışırdıq, investisiyalar qoyulurdu. Hesab edirəm ki, ərzaq təhlükəsizliyi məsələlərinin həllində çox ciddi uğurlara nail olmuşuq.

Bu gün biz ərzaq təhlükəsizliyini şərtləndirən əsas sahələr üzrə ya özümüzü tam təmin edirik, ya da ki, bu hədəfə çox yaxınıq. Ət istehsalı təxminən 100 faizə yaxındır, Azərbaycan özünü təmin edir. Süd istehsalı təqribən 80-85 faizdir. Toyuq əti istehsalı yaxın bir-iki ilə 100 faizə çatacaq və böyük ixrac potensialı yaradılacaq. Yumurta istehsalı - biz indi nəinki özümüzü təmin edirik, həm də ixrac edirik. Yəni, bu sahələr prioritet idi.

Pambıqçılıq əmək tutumlu sahədir. Biz pambıqçılığın inkişafı ilə bağlı, eyni zamanda, on minlərlə yeni iş yeri yaratdıq. Bütövlükdə son illərdə pambıqçılıqla məşğul olan insanların sayı 200 minə yaxınlaşır. Bu insanların böyük əksəriyyəti işləmirdi, ancaq bu gün işlə təmin olunurlar. Əlbəttə ki, bu, xüsusən bölgələrdə işsizliyin aradan qaldırılması istiqamətində çox ciddi sosial sahədir. Mən əvvəlki çıxışlarımda da bunu qeyd etmişəm, bu gün də qeyd etmək istəyirəm, bizim üçün pambıqçılığın inkişafında əldə edilmiş nəticələr arasında məhz sosial amil ön plandadır. İş yerlərinin yaradılması əsas vəzifəmizdir, biz buna da nail ola bilmişik.

**Ardı Səh. 3**

# “Azərbaycan bu gün pambıqçılıqla bağlı inkişaf templərinə görə dünyada lider ölkədir”

## *Bərdədə Prezident İlham Əliyevin sədrliyi ilə pambıqçılığın inkişafına dair respublika müşavirəsi keçirilib*



Əvvəli Səh. 2

Eyni zamanda, pambıqçılıq çox gəlirli sahədir və yaxşı gəlir gətirir. Pambıqçılıq ixracyönümlü sahədir. İxrac üçün bazarları axtarmağa ehtiyac qalmır, birjalarda satılır. Pambıqçılıq emal sənayesinə böyük təkan verir. İndi pambıqtəmizləmə zavodları işləyir. Onların əlbəttə ki, daha da böyük səmərə ilə işləməsi haqqında danışacağıq. Ancaq bu sahəyə də təkan verildi. Eyni zamanda, bunun yerli istehsala böyük dəstəyi oldu. Çünki biz indi özümüz həm pestisid istehsal edirik, Azərbaycanda heç vaxt pestisid istehsal olunmurdu. Keçən ildən başlayaraq pestisid istehsal etməyə başlamışıq. Bu il Sumqayıtda böyük gübrə zavodu fəaliyyətə başlayacaq. Özümüzü gübrələrlə təmin edəcəyik. Artıq Azərbaycanda suvarma texnikasının istehsalı təşkil olunub. Bu texnikanın istifadəsi nəticəsində biz məhsuldarlığı artıra bilərik. Mingəçevir şəhərində Yüngül Sənaye Parkı yaradılmışdır. Mən bu barədə əvvəlki müşavirələrdə öz sözlərimi demişəm, fikirlərimi bildirmişəm. Bütün lazımi tapşırıqlar verilmişdir. Bu ilin fevral ayında Mingəçevirdə Yüngül Sənaye Parkının iki yeni müəssisəsi fəaliyyətə başlamışdır. O müəssisələrdə 700-dən çox insan işləyir və 20 min ton iplik istehsal olunacaq. Bu da əvvəlki dövrdə istehsal olunan ipliyin demək olar ki, yarısıdır. Əgər Azərbaycanda pambıqçılıq sürətlə inkişaf etməsəydi, bu müəssisələrə də ehtiyac qalmazdı. Çünki bu fabriklər ancaq daxili xammal əsasında uğurla fəaliyyət göstərə bilər.



Yəni, görün pambıqçılığın ölkə iqtisadiyyatı üçün nə qədər böyük faydası var - ilk növbədə, məşğulluq, ölkəmizə valyuta gətirir, qeyri-neft sektorunu, qeyri-neft sənayesini inkişaf etdirir, yerli istehsala təkan verir, nəinki pambıqçılıq rayonlarında, digər rayonlarda da iş yerləri yaradır. Azərbaycan bu gün pambıqçılıqla bağlı inkişaf templərinə görə dünyada lider ölkədir. İnanmıram dünyada ikinci ölkə tapılsın ki, iki il ərzində pambıq tədarükünü altı dəfədən çox artıra bilsin.

Biz bütün bunlara məqsədyönlü tədbirlər nəticəsində nail olmuşuq. Bir daha demək istəyirəm, əgər pambıqçılığa dövlət dəstəyi göstərilməsəydi, biz buna nail ola bilməzdik, 2015-ci ildə 35 min ton, bu il bəlkə də 20 min ton pambıq yığılardı-yığılmazdı, bu da bəlli deyil. Beləliklə, pambıqçılıq tamamilə məhv olub gedəcəkdi. Biz isə buna imkan vermədik. Pambıqçılığı qoruduq, bərpa etdik və bərpa edəcəyik.”



Dövlətimizin başçısı qeyd edib ki, növbəti illərdə əsas vəzifə məhsuldarlığı artırmaq olacaq. 2016-cı ildə təqribən 90 min tona yaxın pambıq yığılmışdırsa, keçən il bu göstərici 207 min ton olub.






X X X




Sonra Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev, “MKT İstehsalat Kommersiya” Məhdud Məsuliyyətli Cəmiyyətin baş direktorunun müavini Rövşən Həsənov, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Biləsuvar rayonundan fermer Fazil Musayev, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, “Azərpambıq” Məhdud Məsuliyyətli Cəmiyyətin baş direktor əvəzi Zakir Əzimov, Saatlı rayonundan fermer Nizami Məmmədov, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə çıxış etdilər.



Prezident İlham Əliyev müşavirədə yekun nitqi söylədi.

Daha sonra “Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi” haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxundu. Prezident İlham Əliyev fermerlər Fatma Hüseynovaya, Tofiq İsmayılova və Fazil Musayevə 1-ci dərəcəli “Əmək” ordenlərini təqdim etdi.




## Rəsmi xronika

Prezident İlham Əliyev Mədət Quliyevin 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. SİA-nın xəbərinə görə, Sərəncamda bildirilir ki, Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi və milli maraqlarının müdafiəsi sahəsində səmərəli fəaliyyətinə görə Mədət Qəzənfər oğlu Quliyev 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyevin digər Sərəncamı ilə Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi və milli maraqlarının müdafiəsi sahəsində səmərəli fəaliyyətinə görə Orxan Sedyar oğlu Sultanov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilib

***

Prezident İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələr verilməsi haqqında Sərəncam imzalayıb. SİA-nın xəbərinə görə, Sərəncama əsasən, polkovnik Rəşad Firidun oğlu Həmzəyevə və polkovnik İmran Surxay oğlu Tağı-zadəyə general-mayor ali hərbi rütbəsi, ədliyyə polkovniki Həsən İsa oğlu Mansurova ədliyyə general-mayoru ali hərbi rütbəsi verilib.

***

Prezident İlham Əliyev Banqladeş Xalq Respublikasının Prezidenti Əbdül Həmidə təbrik məktubu göndərib. SİA-nın məlumatına görə, təbrik məktubunda deyilir: “Hörmətli cənab Prezident, Banqladeş Xalq Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm”.

***

Prezident İlham Əliyev Bərdə şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. SİA-nın məlumatına görə, Sərəncama əsasən Bərdə şəhərində abadlıq-quruculuq tədbirlərinin davam etdirilməsi, o cümlədən 8 küçədə əsaslı yenidənqurma işlərinin aparılması üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Bərdə Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılıb. Maliyyə Nazirliyinə göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

***

Prezident İlham Əliyev Bərdə rayonunun Muğanlı-Körpüsındıran avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# Bölgələrin sosial-iqtisadi inkişafı dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev Bərdə rayonuna səfər edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 25-də Bərdə rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Bərdə şəhərinin mərkəzindəki abidəsi önünə gül dəstəsi qoydu.***



Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev rayonda görülən abadlıq-quruculuq işləri barədə dövlətimizin başçısına məlumat verdi.

Martın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə rayonunun Cəyirli kəndinin ərazisində fermer Musa Quliyevin 20 hektarlıq pambıq tarlası ilə tanış olub. AZƏRTAC xəbər verir ki, fermer Musa Quliyev üç ildir pambıqçılıqla məşğul olur.

Prezident İlham Əliyevə məlumat verildi ki, ötən il bu fermer təsərrüfatı tərəfindən 15 hektar sahədə pambıq əkilib və 40,5 ton məhsul götürülüb. Məhsuldarlıq hər hektara 27 sentner təşkil edib. Bu il isə 20 hektarda pambıq əkilməsi nəzərdə tutulub. Qarşıya hər hektardan 35 sentner məhsul götürülməsi hədəf qoyulub. Diqqətə çatdırıldı ki, təsərrüfatda 25 işçi çalışır.

Azərbaycan Prezidenti pambıqçılarla görüşdü. Ölkəmizdə pambıqçılığın inkişafına göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən pambıqçı Sədaqət Ağayeva bildirib ki, yeni iş yerlərinin artması əhalinin sosial rifah halını yaxşılaşdırır:

-Xoş gəlmisiniz cənab Prezident. Sizinlə hər dəfə görüşəndə çox şad oluruq. Çox sevinirik ki, iş yerlərimiz artır. Ayda 300-350 manat maaş alırıq. Yaxşı dolanırıq, çox sağ olun. Allah Sizin, Mehriban xanımın canını sağ eləsin, Novruz bayramınız da mübarək olsun.

Prezident İlham Əliyev:

-Çox sağ olun. Mən də sizi Novruz bayramı münasibətilə təbrik edirəm. Səpin başlayır. Sizə bol məhsul arzulayıram.

Şadam ki, Bərdə rayonunda pambıqçılığın şöhrəti bərpa olunur. Vaxtilə böyük işlər görülmüşdü. Siz yaxşı bilirsiniz ki, 1970-1980-ci illərdə Ulu Öndərin təşəbbüsü ilə ölkəmizdə, o cümlədən Bərdə rayonunda pambıqçılıq geniş vüsət almışdı. Bərdə o vaxt pambıqçılıq sahəsində aparıcı rayonlardan biri idi. O vaxt əlbəttə ki, Azərbaycanda daha çox pambıq yığılırdı, 1981-ci ildə təxminən bir milyon tona çatmışdı. Təkcə Bərdə rayonu o vaxt 120 min ton pambıq təhvil verirdi. Ancaq əfsuslar olsun ki, son illər ərzində pambıqçılıq tənəzzülə uğramışdı. Ona görə, ciddi tədbirlər görüldü, dövlət bu işə lazımi dəstəyi göstərdi və qısa müddət ərzində pambıqçılıq sürətlə inkişaf etməyə başlamışdır, o cümlədən Bərdə rayonunda. Məndə olan məlumata görə, 2015-ci ildə Bərdədə cəmi 3 min ton pambıq yığılmışdır. Keçən il isə 22 min 400 ton. Görülən tədbirlər nəticəsində iki il ərzində pambığın tədarükü təxminən 7-8 dəfə artmışdır. Bax, bu texnika təzə texnikadır. Özü də bu traktorlar Azərbaycan istehsalıdır. Vaxtilə biz bu istehsalı "Belarus" şirkəti ilə birlikdə Gəncə şəhərində qurmuşuq. İndi də fermerlərin tələbatını yerli texnika ilə tam ödəyirik. Digər qoşqular, bunlar xaricdən gətirilib, gübrələr indi lazımi həcmdə verilir, suvarma işləri təşkil olunur. Yəni, pambıqçılığın inkişafı üçün bütün lazımi tədbirlər görülür. Yerli və mərkəzi icra orqanları, fermerlər, şirkətlər bu işlərdə çox fəal çalışırlar. Əlbəttə ki, vətəndaşlar üçün yeni iş yerləri yaradılır.




Bərdədə pambıqçılığın çox böyük ənənələri var. Burada yaşayan insanlar bu işi yaxşı bilirlər. İndi isə biz pambıqçılığı demək olar ki, bərpa etmişik. Əminəm ki, növbəti illərdə daha yüksək nəticə olacaq, məhsuldarlıq daha da artacaq. Buna imkan var. İndi fermer məlumat verdi ki, keçən il hektardan 27 sentner məhsul götürüb. Bu il isə öhdəlik götürüb ki, 35 sentner götürəcək. Məncə, tam realdır. Bu texnikanı, sizi, bu gübrələri, buraya gələn su xətlərini görəndə inam yaranır ki, məhsuldarlıq daha da yüksək ola bilər.

Beləliklə, həm iş yerləri yaradılır, həm ölkə iqtisadiyyatına, yerli istehsala təkan verilir. Çünki indi pambıqçılıq üçün lazım olan bir çox texnikanı, o cümlədən suvarma texnikasını biz özümüz istehsal edirik. Əgər bütün aqrotexniki tədbirlər düzgün təşkil olunarsa, hesab edirəm ki, ölkə üzrə hektardan məhsuldarlıq ən azı 20 sentner olmalıdır. Keçən il bir qədər aşağı idi. Biz bu məsələ ilə məşğuluq. Sabah keçiriləcək müşavirədə bu il görüləcək işlər haqqında danışacağıq. Ancaq məhsuldarlığın artırılması bizim üçün əsas hədəf olmalıdır.



**Ardı Səh. 5**







Əvvəli Səh. 4

# Bölgələrin sosial-iqtisadi inkişafı dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev Bərdə rayonuna səfər edib*

Mən göstəriş vermişdim ki, daha çox iş yeri yaratmaq üçün, ilk növbədə, gərək vətəndaşlar bu işlərə dəvət olunsunlar, yaxşı məvacib verilsin. Biz pambığın satınalma qiymətini artırmışıq, indi 60 qəpikdir. Biz 45 qəpikdən başlamışdıq, sonra 50 qəpik oldu, indi 60 qəpikdir. İndi hər şey sizdən asılıdır. Nə qədər çox pambıq yığsanız məvacibiniz də o qədər çox olacaq. Mən istəyirəm ki, çox yığasınız, çox qazanasınız və ailə büdcənizə də yaxşı töhfə verəsiniz. Xüsusilə nəzərə alsaq ki, pambıqçılıqda kişilərlə bərabər daha çox qadınlar işləyir. Belə olan halda, ailə büdcəsinə hər iki tərəfdən vəsait daxil olacaq.

Görülən işlərlə bağlı sizi təbrik edirəm. Gələcək işlərinizdə sizə uğurlar arzulayıram. Sağ olun.

X X X

Sonra çiyid səpininə start verildi. Daha sonra xatirə şəkli çəkdirildi. Prezident İlham Əliyev təsərrüfatda istifadə olunan texnikalara baxdı. Məlumat verildi ki, səpin işlərinə lazımi texnikanın cəlb edilməsi üçün "Azərpambıq" MMC ilə müqavilə imzalanıb. Bildirildi ki, yeni texnikalar fermerlərin işini asanlaşdırmaqla yanaşı, məhsuldarlığın da artmasına geniş imkanlar açır.



Martın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulan Bərdə türbəsində və Torpaqqala kompleksində yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, Azərbaycandakı tarixi-dini abidələr ölkəmizin tarixinin zənginliyini sübut edir. Belə abidələrdən biri də Bərdə rayonundakı Bərdə türbəsi və Torpaqqala kompleksidir. Bu məkanın əsaslı şəkildə yenidən qurulması Azərbaycan dövlətinin mədəni irsimizə qayğıkeş münasibətinin bariz nümunəsidir. Tarixi kompleksin əsaslı yenidən qurulması, ilk növbədə, zəngin mədəni irsimizin qorunması, inkişafı və bərpası istiqamətində atılan addımların ardıcıl olduğunu göstərir. Bu layihənin icrası, eyni zamanda, bölgələrimizin qədimliyini, tarixi, dini, mədəni abidələrlə zənginliyini dünyaya çatdırmaq baxımından da böyük əhəmiyyət daşıyır, turistləri ölkəmizə cəlb etmək nöqteyi-nəzərindən mühüm rol oynayır. Bərdədə bu layihənin həyata keçirilməsi bir daha sübut edir ki, Azərbaycanda tarixi, dini, mədəni abidələrin qorunub saxlanılaraq, gənc nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlər ölkəmizin bütün bölgələrini əhatə edir və bu prosesdə İslam abidələrinin, onun müqəddəs dəyərlərinin mühafizəsi xüsusi əhəmiyyət daşıyır.

Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov Prezident İlham Əliyevə məlumat verdi ki, Bərdə türbəsi 1322-ci ildə Əcəmi memarlıq məktəbinin nümayəndəsi Əhməd ibn Əyyub əl-Hafiz tərəfindən tikilib. Türbə eramızdan əvvəl inşa olunan Torpaqqala adlı müdafiə divarlarının ərazisində yerləşir. Qülləvarı quruluşa malik türbə yeraltı və yerüstü hissələrdən ibarətdir. Yeraltı hissəni o dövrdə xarakterik olan dəfn üçün ayrılmış sərdabə təşkil edir. Yerüstü qat isə xatirə abidəsidir və monumental xarakter daşıyır. Türbə xarici fasad üzrə kürsüdən, gövdə və günbəzdən ibarətdir.

Hündürlüyü 13 metr olan türbənin bayır tərəfdən diametri 10 metrdir. Kürsüdən başlayaraq yuxarıdakı haşiyəyə qədər hissəni örtən və firuzəyi kaşı ilə qırmızı kərpicin əlaqələndirilməsindən yaranan bir kompozisiyadan əmələ gələn kitabədə "Allah" sözü mütənasib surətdə təkrarlanır. Məhz bu səbəbdən abidəyə el arasında "Allah-Allah" türbəsi də deyilir. Abidənin kimin şərəfinə tikildiyi məlum deyil. Ehtimal olunur ki, Elxanilər sülaləsindən olan bir şəxs üçün inşa edilib. Türbənin yerləşdiyi iki hektar ərazini əhatə edən Torpaqqala divarları da bərpa olunub. Bərpa işləri Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sifarişi ilə "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutu tərəfindən həyata keçirilib. Türbə ilə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.

Martın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bərdə rayonuna səfəri çərçivəsində Yeni Daşkənd-Umudalılar avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov yeni yolun texniki göstəriciləri barədə Prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, yol 15 min əhalinin yaşadığı 17 yaşayış məntəqəsini birləşdirir. Ümumi uzunluğu 25 kilometr olan IV texniki dərəcəli yolun hərəkət hissəsinin eni 6 metrdir. İki hərəkət zolaqlı yol üzərində müxtəlif diametrli 45 suötürücü boru tikilib, zəruri yerlərdə yol nişanları, göstərici lövhələr quraşdırılıb. Yolun inşası bütün texniki tələblərə və ardıcıllığa uyğun olmaqla yüksək səviyyədə yerinə yetirilib. Dövlətimizin başçısı Yeni Daşkənd-Umudalılar avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi. Sonda xatirə şəkli çəkdirildi.




# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Şamaxılılar yekdilliklə Cənab İlham Əliyevə "HƏ" deyir






Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahı dünən Şamaxı şəhəri Olimpiya İdman Kompleksində Zirvə görüşü keçirib. Zirvə görüşünə YAP Mərkəzi Seçki Qərargahının üzvləri Xarici Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla, Azərbaycan Aypara Cəmiyyətinin prezidenti, millət vəkili Novruzəli Aslanov, Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli YAP Mərkəzi Aparatının məsul işçisi Həsən Daşdəmirov iştirak ediblər.

İlk öncə, Zirvə tədbirini giriş sözü ilə YAP Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov açıq elan edib. Sonra Xarici Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla, Azərbaycan Aypara Cəmiyyətinin prezidenti, millət



vəkili Novruzəli Aslanov, Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli çıxış ediblər və hər bir çıxışçı öz nitqində ölkədə dinamik inkişafdan, uğurlardan danışaraq, yenə də Cənab İlham Əliyevə səs verilməsinin vacibliyindən söz açıblar. Zirvə görüşü konsert proqramilə davam etdirilib. Zirvə görüşündə 10 min nəfərə qədər Şamaxı seçiciləri iştirak ediblər. Təbirdə seçicilər bir daha Cənab Prezident İlham Əliyevin ətrafında olduqlarını bildirib və yekdilliklə Cənab İlham Əliyevə "HƏ" deyiblər".

***

Yeni Azərbaycan Partiyası Şamaxı rayon təşkilatının təbliğat qrupunun üzvləri, qrafikə uyğun olaraq, Dağ-Bağırlı, I Çaylı, və Quşçu kəndlərində seçicilərilə görüş keçiriblər. Tədbiri giriş sözü ilə qərargah üzvü Eyvaz Eminaliyev açıb və partiyanın Sədri, prezidentliyə namizəd Cənab İlham Əliyevin 15 illik prezidentlik fəaliyyəti, imza atdığı uğurlar barədə danışaraq, dinamik inkişafın davamı məqsədi ilə, Azərbaycanın inkişafı naminə yenidən Cənab İlham Əliyevə səs verməyin vacibliyini vurğulayıb.

Sonra Qərargah üzvləri Ağarza Bayramov, Tünzalə Yusifova, Dola, Jalə və Fatma Quliyeva, Səməd Fətəliyev, Namik Rzazadə, Şahmar Hüseynov, Hacıbaba Şıxıyev və Güllü Babaşova seçicilərin suallarına cavab verərək, çıxış ediblər və gələcəyin təminatı, stabillik naminə yalnız Cənab İlham Əliyevə səs verməyin lazım olduğunu seçicilərin diqqətinə çatdırıblar. İştirakçılar Prezident İlham Əliyevin bu vaxta qədərki fəaliyyətini dəyərləndirib, yüksək qiymətləndirib və yenə də seçki zamanı Cənab İlham Əliyevə səs verəcəklərini əminliklə söyləyiblər. Bildiriblər ki, şamaxılıların yeganə seçimi Cənab İlham Əliyevdir.

Keçirilən görüşlər, ümumilikdə 19, 20, 21, 22 saylı məntəqələrdə qeydiyyatda olan 500-dən yuxarı seçicini əhatə edib və görüşlər yüksək əhval-ruhiyyə ilə keşirilib.

## Göyçaylılar öz seçimlərini ediblər və bu seçim "İlhamla irəli"dir

11 aprel 2018 -ci ildə kecirilələk prezident seçkiləri ilə əlaqədar olaraq, Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Göyçay rayon şöbəsi təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Heydər oğlu Əliyevə dəstək məqsədi ilə rayonun Aşağı Qaraməryam kəndində seçicilərlə görüş keçirib.

Görüşlərdə təbliğat-təşviqat qrupunun üzvləri Sahib Şükürov, Zemfira Əliyeva, Rövşən Zamanov, Elçin İsmayılov, Rövşən Şərifov, Elçin Bilalov, Elnur İsmayılov, Cavid Rəhimov, Namət Şirinov çıxış edərək, vurğulayıblar ki, Azərbaycanın bir çox bölgələrində olduğu kimi, Göyçay rayonunda da seçicilərin əksər çoxluğu Cənab İlham Əliyevi dəstəkləyir.

Ardı Səh. 7




# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 6

"Söz yox ki, bizim seçimimiz dəyişilməzdir və əminik ki, seçicilərimiz də, ötən seçkilərdə olduğu kimi, alternativsiz namizədimiz İlham Heydər oğlu Əliyevə fəallıqla və hamılıqla səs verəcəklər"-deyə qeyd edən çıxışçılar bildiriblər ki,





son 15 ildə Azərbaycanın inkişafı üçün əzmlə çalışan, xalqına xidmət edən Möhtərəm İlham Əliyev Cənabları xalqının sevgisini qazanıb: "Aprelin 11-də hər birimiz fəallıq göstərərək, seçki məntəqələrinə gedib, Cənab İlham Əliyevi dəstəkləyəcəyik ki, ölkəmiz və xalqımız qarşıdakı illərdə daha nəhəng uğurlara imza atsın",

Kənd sakinləri İbişova Gülnaz, Həsənov Aqif də çıxış edərək, qərarlarının dəyişilməz olduğunu deyiblər və bildiriblər ki, növbəti 7 ildə daha böyük nailiyyətlərin qazanılması naminə seçimləri Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Əliyev Cənablarıdır!

## Şəkililər Cənab İlham Əliyev siyasətinə səs verəcəklər!

2018-ci il 11 apreldə keçiriləcək prezident seçkiləri ilə bağlı təbliğat və təşviqat kampaniyası Yeni Azərbaycan Partiyası Şəki rayon təşkilatı tərəfindən də uğurla davam etdirilməkdədir.





Dünən dörd min nəfərdən yuxarı seçicisi olan Şəki rayonu Cumakənd kəndində təbliğat qrupunun üzvləri Kamil Məmmədov, Nurəli Çələbiyev və Yusif Məmmədovun iştirakı ilə seçicilərlə görüş keçirilib. Tədbiri giriş sözü ilə Kamil Məmmədov açaraq, qarşıdan gələn prezident seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin seçki platforması barədə məlumat verib.

Daha sonra çıxış edən Nurəli Çələbiyev ötən 15 ildə görülmüş işlər barədə geniş məlumatlar verərək, əldə edilən hər bir nailiyyətin əsasında Ulu Öndər Heydər Əliyev ideologiyası və bu ideologiyanı uğurla davam etdirən İlham Əliyevin müdrik siyasəti barədə danışıb.

Natiqlər, eyni zamanda, qeyd ediblər ki, əldə edilən hər bir nailiyyət xalqımızın daha firavan yaşaması üçün atılan mütərəqqi addımların tərkib hissəsidir. Bu uğurları dəstəkləyən hər bir azərbaycanlı seçki günü məntəqələrə gedərək, fəal şəkildə İlham Heydər oğlu Əliyevə səs verəcəklərini deyiblər.

Kənd sakinləri də öz növbələrində, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklərini əminliklə vurğulayıblar.

## Zərdablı seçicilər uğurlu siyasətin davamına səs verəcəklər!

Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Zərdab rayonunda seçicilərlə görüşlər uğurla davam etdirilir. Növbəti belə görüş rayonun I Alıcanlı, II Alıcanlı, Cilovxanlı kəndlərindən olan seçicilərlə keçirilib.





Görüşdə çıxış edən YAP Zərdab rayon təşkilatının sədri Pərvin Mahmudova Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı Cənab İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlar, uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə qazandığı uğurlardan bəhs edib. Pərvin Mahmudova kənd seçicilərini Heydər Əliyev siyasətinin davamı naminə 11 aprel seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Daha sonra çıxış edənlər - təbliğat qrupunun üzvləri Mənsim Pənahov, Ziyad Xancanov, Telman İsmayılov, Fiqura Abbasova, Şahnaz Mustafayeva qeyd ediblər ki, Azərbaycanın sürətli inkişafı, insanların sosial rifah halının daha da yaxşılaşması, yeni iş yerlərinin açılması və digər müsbət reallıqlar Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Nəzərə çatdırılıb ki, xalqımız Cənab İlham Əliyevi dəstəkləyir, çünki dövlətimizin başçısı ölkəmizi yeni nailiyyətlərə və möhtəşəm qələbələrə aparır.

Görüşlərdə seçicilər adından çıxış edən kənd sakinləri Zabit Qəribov, Əlişah Cavadov, Əli Fərəcov da artıq öz seçimlərini etdiklərini və 11 aprel tarixində seçki məntəqələrinə gələrək sabitliyə, uğurlu gələcəyə və bunun qarantı olan Cənab İlham Əliyevə yekdilliklə səs verəcəklərini bildiriblər.

## Uğurlu sabahımıza "İlhamla İrəli"

Dünən YAP Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsi Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təşviqat-təbliğat kampaniyası çərçivəsində Xanagah, Qurbanəfəndi və Qalacıq kəndlərində seçicilərlə görüş keçirib.

Tədbirləri giriş sözü ilə YAP Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsinin sədri Sevil Əhmədova açaraq qeyd edib ki, böyük uğurlarla zəngin olan son 15 il ərzində əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və ciddi elmi prinsiplərə əsaslanan çoxşaxəli sosial-iqtisadi inkişaf strategiyası inamla davam etdirilmiş, müstəqil Azərbaycan Respublikası bütün həyati əhəmiyyətli sahələrdə dinamik tərəqqi yolu keçmişdir. Hələ 2003-cü ilin prezi-






dent seçkilərində xalqımızın mütləq əksəriyyətinin etimadını qazanaraq, dövlət başçısı seçilmiş Cənab İlham Əliyev respublikamızın yeni dövr prioritetlərini açıqlamış, çevik və işlək mexanizmlər üzərində proqressiv islahatları reallaşdırmaqla dərin ictimai rəğbət qazanmış, hər bir azərbaycanlının layiqli Prezidenti olduğunu sübuta yetirmişdir.

YAP İsmayıllı rayon təşkilatının idarə heyətinin üzvləri Zaur Muradov, Valeh Salehov və Sərdar Yəhyayev çıxış edərək, qeyd ediblər ki, Ümummilli Liderimiz Heydər Əliyevin xarici siyasət kursunun davamlılığının təmin olunması nəticəsində, ölkəmizin sivil dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri yeni müstəvidə daha da inkişaf etdirilmişdir. Dəqiq müəyyənləşdirilmiş prioritetlər, elmi əsaslara söykənən fundamental qərarlar, diplomatik münasibətlərdə balanslaşdırma prinsipinin qorunması, Azərbaycanın etibarlı tərəfdaş kimi, beynəlxalq imicini daha da möhkəmləndirmişdir. 15 il müddətində atılan məqsədyönlü addımlar, imzalanan çoxsaylı dövlət proqramları, fərman və sərəncamlar dövlət başçısının xalqın mənafeyinin daim qorunmasını öz fəaliyyətinin başlıca prinsipi kimi götürdüyünü bir daha təsdiqləmişdir.

Daha sonra kənd sakinləri Vəzirxan Fətəliyev, Tükəzban Balalıyeva, Fikrət Bədirov, Nadir Balayev və başqaları çıxış edərək, qeyd etdilər ki, onlar bütün seçki kampaniyalarında fəal şəkildə iştirak ediblər və Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin yürütdüyü siyasətdən razıdırlar. Məhz 11 apreldə keçiriləcək Azərbaycan Respublikasının Prezidenti seçkilərində də bunun qarşılığı olaraq Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə yekdilliklə səs verəcəklər.

## Seçicilər güclü dövlətin güclü LİDERİNƏ səs verəcəklər

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsinin Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində səhiyyə işçiləri ilə görüşü keçirilib. Tədbirdə 350-dək seçici iştirak edirdi.

Ardı Səh. 8

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 7

Tədbiri giriş sözü ilə açan rayon təşkilatının sədri millət vəkili Məlahət İbrahimqızı ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın nail olduğu möhtəşəm tarixi nailiyyətlərdən, ölkəmizin beynəlxalq nüfuzunun gündən-günə möhkəmlənməsindən və sürətli iqtisadi inkişafa nail olmasından danışıb. Qeyd edib ki, Prezident İlham Əliyev bütün fəaliyyəti dövründə Azərbaycanın milli maraqlarını və vətəndaşlarının mənafeyini müdafiə edib. Onların sosial rifah halının daha da yaxşılaşdırılması daim diqqətdə olub və uğurlu sosial siyasət həyata keçirilib. Azərbaycanın daxili imkanları genişləndikcə, sosial sahələrə də diqqətin artdığını bildirən rayon təşkilatı sədri ölkə daxilində görülən işlərin müasir səviyyədə həyata keçirildiyini diqqətə çatdırıb.

Rayon təşkilatı sədri bütün bu uğur və nailiyyətlərin Cənab Prezidentin rəhbərliyi ilə gerçəkləşdiyini bildirərək, seçiciləri bu firəvan həyatın davamlılığı üçün bütün azərbaycanlıların lideri Cənab İlham Əliyevə səs verəməyə çağırdı.






Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsinin seçki qərargahının üzvü Sabir Əliyev qeyd etdi ki, ölkə Prezidenti İlham Əliyevin dövlətimizin inkişafı, əhalinin sosial-rifah halının yaxşılaşdırılması naminə apardığı məqsədyönlü fəaliyyəti hamımızın gözü qarşısındadır. Tikilən yeni məktəblər, səhiyyə ocaqları və müasir görünüşlü inzibati binalar ölkəmizin simasını dəyişir. Biz ölkəmizin dinamik inkişafını təmin edən Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycana beynəlxalq aləmdə böyük nüfuz qazandıran Cənab İlham Əliyevin namizədliyini dəstəkləyir, cəmiyyətimizin bütün üzvlərini Onun ətrafında sıx birləşməyə çağırırıq.

Görüşdə iştirak edən seçicilər, birmənalı tərzdə Cənab İlham Əliyevin namizədliyini dəstəklədiklərini, seçki günü fəal şəkildə məntəqələrə gedərək, Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı Cənab İlham Əliyevə səs verəcəklərini vurğuladılar.

## Xaçmazlılar sabitliyin dayanıqlı olmasına səs verəcəklər

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatı Qımıl Qışlaq və Hacıəlibəy kəndlərinin seçiciləri ilə görüş keçirmişdir.






Görüşü YAP Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov açaraq prezident seçkilərinin demokratik, şəffaf keçirilməsinin əhəmiyyətindən, YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzində Azərbaycanın nail olduğu möhtəşəm tarixi nailiyyətlərdən, beynəlxalq nüfuzunun gündən-günə möhkəmlənməsindən, sürətli iqtisadi inkişafa nail olmasından və digər məsələlər haqqında seçicilərə geniş məlumat vermişdir.

Görüşlərdə kənd sakinlərindən Eyvaz Aydınov, Gülnar Səfixanova, Əli Kərimov, Səbuhi Nurəddinov, Mehparə Mustafayeva, Hicran Şabanova, Absətdər Oruclu, Telman Tarverdiyev, Məhərrəm Bədəlov, rayon ağsaqqallar şurasının sədri, təşviqat qrupunun üzvü Əli Mustafayev və başqaları çıxış edərək, Möhtərəm Prezidentimiz ətrafında sıx birləşdiklərini qeyd etməklə, seçki günündə hər birinin öz ailəsi ilə seçki məntəqələrinə gələrək, öz layiqli töhfələrini verəcəklərini bildirdilər. Cənab İlham Əliyevə səs verməklə ölkənin gələcək inkişafına, sabitliyin dayanıqlı olmasına səs verəcəklərini qeyd etdilər.

Çıxış edən xaçmazlılar həmişə dövlətə, dövlətçiliyə və Prezidentə öz sədaqətlərini göstərmişlər və Onun ətrafında sıx birləşdiklərini bildirməklə seçki günü hamı bir nəfər kimi məntəqələrə gələcək və xalqın layiqli oğlu İlham Əliyevə səs verəcəklər.

## Zaqatalalılar möhtəşəm nailiyyətlərin davamına səs verəcək

11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahı Zaqatala rayon şöbəsi Kebeloba kənd seçiciləri ilə görüş keçirib. Görüşlərdə 300-ə yaxın seçici iştirak edib.

Seçicilərlə görüşdə YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlar, uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə qazandığı uğurlardan danışıb. O bildirib ki, artıq ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən prezident seçkilərinə az bir müddət qalıb. H.Qurbanov seçiciləri Ulu Öndər Heydər Əliyev siyasətinin davamı naminə 11 aprel seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən YAP Zaqatala rayon təşkilatının sədr müavinləri Xanım İsayeva, Əsgər Məmmədov, təbliğat qrupunun üzvləri Tahir Məmmədov, Ədalət Novruzova, Gülnigar Məmmədova, Kəmalə Əhmədova və başqaları Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin zəngin həyat yolundan, Onun Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi naminə misilsiz xidmətlərindən, həmçinin, rayonda görülən quruculuq-abadlıq işlərindən danışıblar. İnsanların həyat səviyyələrinin yaxşılaşdırılması istiqamətində atılan addımlara görə, Cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Vurğulayıblar ki, 11 aprel tarixində keçiriləcək seçkilərdə Cənab İlham Əliyevi dəstəkləyəcəklər.





Kənd ağsaqqalları və ziyalılar çıxış edərək, artıq seçimlərini etdiklərini, hamılıqla partiyanın namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Zaqatalanın Qımır, Çobankol Bazar kənd seçiciləri ilə keçirilən növbəti görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsinin sədri Habil Qurbanov Yeni Azərbaycan Partiyasının namizədi, Cənab İlham Əliyevin 2003-2018-ci illərdə ölkəyə başçılıq etdiyi müddətdə Azərbaycanın bütün sahələr üzrə sürətli inkişaf yolu keçdiyindən, bu gün vətənimizin dünyada sayılıb-seçilən ölkələrlə bir sırada qərarlaşmasından, əhalinin sosial-rifah halının yaxşılaşdırılması istiqamətində atılan qətiyyətli addımlardan, ölkənin siyasi, iqtisadi, mədəni və sosial sahələrində aparılan islahatlardan danışıb.H.Qurbanov seçiciləri prezident seçkilərində partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Rafael Hüseynov seçicilərin seçiminin Prezident İlham Əliyev olacağına şübhə etmədiyini deyib. Onun sözlərinə görə, son illərdə həyata keçirilən abadlıq-quruculuq işləri rayonların, kəndlərin inkişafında mühüm rol oynayıb, bir sıra təhsil, səhiyyə və mədəniyyət ocaqları təmir olunub. Ölkə vətəndaşlarının rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb. Milyonlarla yeni iş yerləri açılıb və Azərbaycan turizm mərkəzinə çevrilib. Qeyd edib ki, Cənab İlham Əliyevə səs vermək, möhtəşəm nailiyyətlərin davamlı olmasına, iqtisadiyyatımızın daha da inkişafına, vətəndaşlarımızın həyat səviyyəsinin daha da yüksəlməsinə səs vermək deməkdir. Millət vəkili bir daha seçiciləri 11 apreldə YAP-ın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Seçicilər adından çıxış edən kənd ağsaqqalı Məhərrəm

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Məmmədov bildirib ki, Azərbaycanın daha da inkişafı naminə Cənab İlham Əliyevə səs verəcəklər.

## Qusarlı seçicilər gələcək inkişafa səs verəcəklər

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası çərçivəsində dünən rayonun Mucuq və Həzrə kəndlərində seçicilərlə görüşlər keçirilib.





Görüşlərdə YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov çıxış edərək, Yeni Azərbaycan Partiyasının Lideri və vahid namizədi, ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə Azərbaycanın qazandığı möhtəşəm tarixi nailiyyətlər, ölkəmizdə həyata keçirilən genişmiqyaslı və çoxşaxəli işlər, eləcə də qarşıda duran strateji hədəf və məqsədlər haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, bu müddət ərzində Azərbaycan xalqının Liderinə çevrilən Cənab İlham Əliyev müstəqil Azərbaycan dövlətinin Qurucusu və Banisi Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirərək, onu müasir tələblər və çağırışlar nəzərə alınmaqla, daha da təkmilləşdirmiş, həm ölkə daxilində, həm də xarici siyasət sahəsində xalqımızın milli mənafelərinə müvafiq olaraq həyata keçirdiyi genişmiqyaslı islahatları ilə ümumxalq dəstəyi qazanmışdır. Rayon təşkilatının sədri bu inkişaf və tərəqqini yüksək dəyərləndirərək, 11 aprel prezident seçkiləri günü seçiciləri, seçki məntəqələrinə gələrək, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsinin qərargah üzvləri General Sadulov, Kamil Sultanov və başqaları çıxış edərək, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən elm, təhsil, mədəniyyət, gənclər və idmanın inkişafı sahəsində aparılan siyasətdən danışdılar. Bildirildi ki, 15 il ərzində ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq işləri, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının tətbiqi ilə həyata keçirilən islahatlar, infrastruktur layihələri dövlət başçısının 2003-cü ildən bu günədək olan fəaliyyətinin məntiqi nəticəsidir. Çıxış edənlər İLHAMLA İRƏLİ səslənərək, seçicilərə 11 aprel 2018-ci ildə Azərbaycan Respublikasında keçiriləcək prezident seçkilərində partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırış etdilər.

## Qəbələdə təbliğat kampaniyası uğurla davam edir

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Qəbələ rayon təşkilatı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Təbliğat-





təşviqat kampaniyası çərçivəsində növbəti görüş Yeni Dızaxlı, Dızaxlı və Ziring kəndlərindən olan seçicilərlə keçirilib. Tədbiri giriş sözü ilə YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov açaraq son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlarından bəhs edib və hamını yekdilliklə Cənab İlham Əliyevə səs verməyə çağırıb. Sonra təbliğatçı Reyhan Məmmədova Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin seçki platforması ətrafında çıxış edib və xalqın seçiminin Cənab İlham Əliyev olduğunu vurğulayıb. Tədbirdə çıxış edən Milli Məclisin üzvü Rafail Hüseynov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz qüdrətlənir, xalqımız əmin-amanlıq içərisində yaşayır və istəyir ki, ölkədəki mövcud əmin-amanlıq, iqtisadi və sosial inkişaf davamlı və əbədi olsun. O bildirib ki, ölkə başçısı Cənab İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə Azərbaycan çox böyük sürətlə inkişaf edib, qısa müddət ərzində inqilabi sıçrayış əldə edilib və prezidentliyə namizəd İlham Əliyevin seçki proqramının əsas məğzi də ölkəmizi iqtisadi cəhətdən inkişaf etdirmək, xalqın maddi rifah halını yüksəltmək, respublikamızı beynəlxalq aləmdə tanıtmaqdan ibarətdir.

Görüşdə seçicilər adından Mustafa Sovzuyev, Elbrus Məmmədov, Sənan Süleymanov, Qorxmaz Qasımov, Cəlil Səfərçinov və Mirzəmməd Mirzəliyev çıxış edərək xalqın gələcəyi və ölkənin inkişafı naminə gördüyü böyük işlərə görə qarşıdan gələn 11 aprel 2018-ci ildə seçki məntəqələrinə gələrək, İlham Heydər oğlu Əliyevə səs verəcəklərini böyük ruh yüksəkliyi ilə bildiriblər.

### QOBUSTAN

Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsi 11 apreldə keçiriləcək prezident seçkiləri ilə bağlı Sədəfli, Nardərən və Bəklə kəndlərində seçicilərlə görüş keçirib.

Görüşdə Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin və YAP Qobustan





rayon təşkilatının sədri, Füzuli Gülaliyev çıxış edərək, qeyd edib ki, artıq ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən prezident seçkilərinə az vaxt qalıb: "Yeni Azərbaycan Partiyası qarşıdan gələn prezident seçkilərində partiyanın Sədri, Cənab İlham Əliyevin namizədliyini irəli sürüb və şübhə yoxdur ki, partiyamızın bu qərarı xalqımızın istək və arzularından irəli gəlir. Bu qərar Azərbaycan seçicilərinin mütləq əksəriyyətinin mövqeyini və iradəsini ifadə edir". Füzuli Gülaliyev seçiciləri konstitusion hüquqlarından istifadə edərək, Azərbaycan dövlətinin gələcək inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edən bu seçkilər prosesində fəal iştirak etməyə, aprelin 11-də seçki məntəqələrinə gedərək Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən rayon seçki qərargahının üzvü Şahbazov Ruslan, seçiciləri qarşıdan gələn prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb. Qeyd olunub ki, İlham Əliyevə səs vermək möhtəşəm nailiyyətlərin davamlı olmasına, iqtisadiyyatımızın daha da inkişafına, vətəndaşlarımızın həyat səviyyəsinin daha da yüksəlməsinə səs vermək deməkdir.

Bədəlli və Sədəf kənd sakinlərindən Dursunbaba Eminov, Sevda Mövlamova, Qalib Qocayev, Mahir Baxışov, Qurbanəli Əhlimanov və digərləri Cənab İlham Əliyevin başçılığı ilə qazanılmış uğurları və siyasəti dəstəkləyərək, 11 aprel 2018- ci ildə seçki məntəqələrinə gedərək, bu siyasətin davamına - Cənab İlham Əliyevə səs verəcəklərini qeyd etdilər.

## Gələcəyimizin qarantı Cənab İlham Əliyevdir

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsinin seçki qərargahının üzvləri 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Çiçi və Tüləkəran inzibati-ərazi dairələrində seçicilərlə görüşlər keçirib. Görüşlərdə YAP Quba rayon təşkilatının sədri Yusif Abidov çıxış edərək, hər bir ölkədə demokratik seçkilərin keçirilməsini həmin ölkənin mühüm göstəricilərindən biri olduğunu vurğulayıb: "Biz Azərbaycanda keçirilən həm prezident seçkilərində, həm parlament, həm də bələdiyyə seçklərində bunun dəfələrlə şahidi olmuşuq.

Ardı Səh. 10

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 9

Cənab İlham Əliyev ötən illər ərizində Ona bəslənən ümidləri doğruldub və Özünü qətiyyətli, praqmatik siyasətçi kimi təsdiqləyib.

Yüksək intellekti, mütərəqqi idarəçilik prinsipləri ilə cə-





miyyətdə böyük nüfuz qazanıb. Bu baxımdan da, xalqımız, o cümlədən, qubalılar "İLHAMLA İRƏLİ!" şüarı ilə seçkilərə gedərək, uğurlu gələcəyimizin qarantı - İlham Əliyevə səs verəcəklər".

Görüşdə təbliğat qrupunun üzvləri Hüseyn Kərimov, Tahir Nuriyev, Zamik Haşımov, Həsən Günəşli, Kamran Əhmədov, Habil Bayramlı və başqaları çıxış edərək, Azərbaycanda olan yüksək inkişafdan, insanlara göstərilən qayğı və diqqətdən danışıblar. Qeyd olunub ki, belə bir mühitdə qubalıların partiyanın namizədi Cənab İlham Əliyevdən başqa heç bir seçimi yoxdur.

Seçicilər də çıxışlarında 11 apreldə keçiriləcək prezident seçkilərində partiyanın namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Sabitliyə, tərəqqiyə, uğura - Cənab İlham Əliyevə səs verək

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsi 11 aprel tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Binəqədi rayon seçicilərilə görüşlər keçirilib.

Görüşlərdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev uzaqgörən siyasəti və xalqımıza olan sevgisi sayəsində ölkəmizi məhv olmaq təhlükəsindən xilas edib. R.Göyüşov, həmçinin Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 15 il ərzində əldə olunan uğurlardan ətraflı danışıb. Təşkilat sədri bütün bu uğurların fonunda dövlət başçısı Cənab İlham Əliyevin yüksək etimad və etibara layiq olduğunu söyləyərək, seçiciləri qarşıdan gələn prezident seçkilərində YAP-ın namizədi, milli maraqlarımızın təminatçısı, Ümummilli Lider Heydər Əliyev ideyalarının layiqli davamçısı Cənab İlham Əliyevə səs verməyə çağırıb.

YAP Binəqədi rayon təşkilatının idarə heyətinin üzvü Mürsəl Əliyev çıxışında Cənab İlham Əliyevin siyasi xəttinin əsasının, məhz dövlətimizin və xalqımızın təhlükəsizliyinin təmin olunması, onun maraq və mənafeyinin qorunmasının olduğunu söyləyib. O, seçicilərə səslənərək, onları 11 aprel tarixində keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşlərdə çıxış edən Milli Məclisin deputatı Madar Musayev ölkə Prezidenti Cənab İlham Əliyevin Azərbaycana prezidentlik etdiyi son 15 il ərzində ölkəmizin misli görülməmiş qədər inkişaf etdiyini söyləyib. Azərbaycanı inkişaf göstəricilərinə görə Cənubi Qafqazın ən güclü ölkəsi olmasından və ölkəmizin beynəlxalq arenadakı yüksək nüfuzundan bəhs edib. Bildirib ki, dövlət başçısı Cənab İlham Əliyevin növbəti illərdə də Azərbaycana rəhbərlik etməsi ilə inkişaf və tərəqqimizin daha da artacağını, ölkəmizin daha yüksək qələbələrə imza atacağını nəzərə çatdırıb. Bütün seçiciləri növbəti prezident seçkilərinə gedərək, yekdilliklə Cənab İlham Əliyevə səs verməyə və dəstək olmağa səsləyib.

Milli Məclisin komitə sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov çıxışında 1990-cı illərin əvvəllərindəki tarixi, ictimai-siyasi vəziyyətə nəzər salıb. Qeyd edib ki, ölkəmiz o zamankı səriştəsiz və yarıtmaz qüvvələrin rəhbərliyi altında böyük uçuruma sürüklənmişdi. Dövlətçiliyimiz təhlükə altına salınmış, torpaqlarımız işğal olunmuş, vətəndaş müharibəsi az qala bütün ölkəni cənginə almışdı: "Xalqımız düşdüyü bu çətin və amansız vəziyyətdən çıxış yolunu tapmağa çalışır və ölkəmizi xilas etməyin yollarını axtarırdı. Təbii ki, belə bir






vəziyyətdə böyük və müdrik siyasi liderə, şəxsiyyətə ehtiyac duyulurdu. Bu zaman bütün Azərbaycan xalqının seçimi, məhz Ulu Öndər Heydər Əliyev oldu. Onun uzuqgörən siyasəti, yüksək vətənpərvərliyi, dövlətinə və xalqın bəslədiyi sonsuz məhəbbəti xalqımızın Ona ümid etməsinə, pənah aparmasına əsaslı səbəb oldu. Beləliklə, Ulu Öndər Heydər Əliyev xalqımızın tələbi və xahişi ilə yeni siyasi partiyanın yaranmasına və ona rəhbərlik etməyə razılıq verdi, sonrakı illərdə isə xalqın istəyi ilə Prezident seçildi. O vaxtdan ötən müddət ərzində bu uğurlu siyasi xəttin həyata keçirilməsi və bu gün dövlət başçısı Cənab İlham Əliyev tərəfindən davam edirilməsi hərtərəfli inkişafımızın əsl zəmanətinə çevrildi". E.İbrahimov ölkə Prezidenti Cənab İlham Əliyevin siyasi rəhbərliyi sayəsində işğal altındakı torpaqlarımızın tezliklə işğaldan azad olunacağına əminliyini bildirib. Bütün seçiciləri növbəti prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər inkişafa, tərəqqiyə, uğura, sabitliyə, təhlükəsizliyə - Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## "Öz LİDERİMİZƏ - Cənab İlham Əliyevə səs verəcəyik"

### Qax rayon seçiciləri ilə görüşlər davam edir

Dünən Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Qax rayonun Turaclı, Marsan, Çüdüllü kəndlərinin seçiciliəri ilə görüş keçirilmişdir. Görüşdə iştirak edən Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Göyçay rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Eldəniz Şabanov, Babək Heydərov çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son illərdəki inkişaf tempindən, iqtisadi cəhətdən güclənərək, dünya arenasında tutduğu mövqedən və gələcək planlardan danışıblar. Daha sonra, Cənab İlham Əliyevin qaxlılara göstərdiyi diqqət və qayğı nəticəsində, son illər rayonda istifadəyə verilən təhsil müəssisələri, səhiyyə, mədəniyyət obyektləri, əhalinin istirahəti üçün açılan park və istirahət yerləri, aparılan abadlıq-quruculuq işləri barədə geniş məlumat verilib. Qeyd olunub ki, 11 apreldə bu inkişafın davamına - Cənab İlham Əliyevə səs vermək bizim mənəvi borcumuzdur.





Kənd sakinlərindən Vaqif Allahverdiyev, Sədrəddin Nəzirov, Sərvan Omarov və digərləri çıxış edərək, qeyd ediblər ki, xalqın gözü tərəzidir: "Biz azərbaycanlılar pisi-yaxşıdan seçməyi bacarırıq. Cənab Prezidentimizin xalqımıza etdiyi yaxşılıqları heç vaxt unutmarıq. Biz böyük coşqu ilə seçkiyə gedəcəyik və öz LİDERİMİZƏ - Cənab İlham Əliyevə səs verəcəyik".

## Ağdaşlılar davamlı inkişafa səs verəcəklər

11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-





təşviqat kampaniyası Ağdaş rayonunda uğurla davam edir. Dünən təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüş rayonun Kotanarx, Nehrəxəlil və Cardam kəndlərinin seçicilərilə olub.

Ardı Səh. 11

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 10

Görüşü giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsinin sədri, Milli Məclisin deputatı Cavid Osmanov bildirib ki, prezident seçkilərində Cənab İlham Əliyevin namizədliyinin Yeni Azərbaycan Partiyası tərəfindən irəli sörülməsi ölkə ictimaiyyəti tərəfindən böyük sevinc və rəğbətlə qarşılanıb. O, vurğulayıb ki, 2003-2018-ci illərdə Cənab İlham Əliyevin rəhbərliyi altından möhtəşəm tarixi nailiyyətlərə imza atılıb. C.Osmanov dövlətimiz tərəfindən ölkə vətəndaşlarına göstərilən diqqət və qayğıdan söz açaraq bildirib ki, ağdaşlılar da bu qayğını hər zaman üzərilərində hiss edirlər. Ağdaşlıların hər zaman dövlətə-dövlətçiliyə sadiq insanlar olduğunu vurğulayan millət vəkili bütün xalqımız kimi ağdaşlı seçicilərin də seçimi, məhz Cənab İlham Əliyevin olacağına əminliyini ifadə edib.

Görüşdə təbliğat qrupunun üzvlərindən Sevgili İbrahimova və Anar Şahmuradov çıxış edərək, seçiciləri ölkəmizin gələcək inkişafının qarantı, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə yekdil şəkildə dəstək olmağa və səsvermə günü həmrəylik nümayiş etdirməyə çağırıblar.

Seçicilər adından çıxış edən Sadayə Qocayeva, Araç Yusubov, Yeganə Həsənova və Sədaqət Şavəddinova bildiriblər ki, onlar artıq seçimlərini ediblər və seçimləri, əlbəttə ki, Yeni Açərbaycan Partiyasının namizədi, ölkə başçısı Cənab İlham Əliyevdir. Çıxışçılar bildiriblər ki, Cənab İlham Əliyevə səs verməklə sabitliyə, əmin-amanlığa, davamlı inkişafa səs vermiş olacaqlar.

## Ucar seçiciləri: "11 apreldə xalqımız hamılıqla prezidentliyə namizəd Cənab İlham Əliyevə səs verəcək!"

Yeni Azərbaycan Partiyasının Ucar rayon təşkilatı təbliğat-təşviqat qrafiki üzrə yerlərdə seçicilərlə görüşlərini uğurla davam etdirir. Növbəti görüş 11 aprel 2018-ci ildə Azərbaycan Respublikasında keçiriləcək prezident seçkilə-





rinə həsr edilmiş "İlhamla irəli" şüarı altında keçirilib. Açıq havada Ucar rayonu Rəstəcə kəndindəki görüş mitinq xarakterli olub.

Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsinin sədri Şəhla Abdullayeva bildirib ki, Azərbaycan xalqı 15 ildir ki, hörmətli Prezidentimiz İlham Əliyevin sayəsində firavanlıq şəraitində yaşayır və öz xoşbəxt gələcəyini qurur. "Milyonlarla insanın, seçicilərin amalı budur ki, Cənab İlham Əliyev yenə də dövlət başçısı seçilsin və Azərbaycanın inkişafı bundan sonra da davam etsin"-deyə qeyd edən Ş.Abdullayeva bildirib ki, 11 apreldə xalqımız hamılıqla prezidentliyə namizəd Cənab İlham Əliyevə səs verəcək.

Təbliğat qrupunun üzvüləri Alı Babayev və Rahib Rəsulov da çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədi, Cənab İlham Əliyevin rəhbərliyi altında 2003-2018-ci illərdə müstəqil Azərbaycanımızın qazandığı möhtəşəm tarixi nailiyyətlər haqqında ətraflı məlumat veriblər və seçiciləri Yeni Azərbaycan Partiyasının namizədi İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıblar.

Seçicilər adından Rəstəcə kənd sakini Rafiq Məmmədzadə və Rauf Məmmədov da çıxış edərək, ötən 15 ildə İlham Əliyev Cənablarının hər bir Azərbaycanlının Prezidenti olduğunu sübut etdiyini vurğulamaqla seçkilərdə Cənab İlham Əliyevin namizədliyini yekdilliklə müdafiə edəcəklərini bəyan ediblər.

## Nərimanov rayonunun səhiyyə işçiləri "İlhamla irəli" deyirlər

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatında səhiy-






yə işçiləri ilə görüş keçirilib.

Tədbiri Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev açaraq, Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin apardığı ardıcıl və sistemli islahatlar, həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə istər regionda istərsə də bütün dünyada qazandığı uğurlardan danışıb. T.Tağıyev Azərbaycanın və regionun ən güclü siyasi partiyası olan YAP-ın yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazandığını bildirib. "YAP Prezident İlham Əliyevin Sədrliyi ilə dövlətimizin inkişafı və xalqımızın əmin-amanlıq içində yaşaması uğrunda mühüm töhfələr verməkdədir"-deyə qeyd edən natiq, həmçinin bildirib ki, bütün bunlar da xalqımızın partiyamızı dəstəkləyəcəyinə və onun namizədi Cənab İlham Əliyevə yekdilliklə səs verəcəyinə təminat verir: "Bütün bu sadalanan və digər uğurların davamı üçün hər kəsi İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıram".

YAP Nərimanov rayon qadınlar şurasının sədri Məhəbbət İbrahimova çıxış edərək bildirib ki, Azərbaycan qadını özünü heç vaxt görülən işlərdən kənarda hiss etməyib. Onun sözlərinə görə, qadınların hüquqlarının qorunması, onların sosial vəziyyətinin yaxşılaşdırılması dövlətin əsas prioritetlərindən biridir. M.İbrahimova qeyd edib ki, qadınlar bu il ölkədə keçiriləcək prezident seçkilərində yaxından iştirak edərək, layiqli namizəd olan Cənab İlham Əliyevə səs verəcəklər.

"Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev isə çıxışında bildirib ki, bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev gənclərin bütün arzularının reallaşması istiqamətində davamlı və qətiyyətli siyasət yürüdür. Onun sözlərinə görə, Azərbaycan qısa müddətdə iqtisadi-siyasi cəhətdən regionun lider dövlətinə çevrilib, hərbi potensialımız olduqca yüksək səviyyədədir. "Vətəndaşlarımızın sosial rifahının yüksəldilməsi istiqamətində davamlı tədbirlər görülür, pensiyalar artırılır, yeni iş yerləri yaradılır"-deyə vurğulayan Bəhruz Quliyev qeyd edib ki, artıq bütün dünya dövlətləri ölkəmizi yaxın tərəfdaş qismində qəbul edir: "Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycan mütləq üstünlüklər əldə edib. Bütün bunlar Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Prezidentimiz tərəfindən uğurla davam etdirilən siyasi kursun uğurlarıdır. Bu uğurların davamı naminə hər bir Azərbaycan gəncini 11 apreldə keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıram".

7 saylı uşaq yoluxucu xəstəliklər xəstəxanasının baş həkimi Mehriban İsayeva və gənc fəal Günya İmanova çıxış edərək bildirdilər ki, Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olan Möhtərəm Prezidentimiz İlham Əliyev hakimiyyətdə olduğu 15 il ərzində Azərbaycanı dünyanın aparıcı və lider dövlətinə çevirib. Çıxış edənlər onu da qeyd ediblər ki, gənclər bu il ölkədə keçiriləcək prezident seçkilərində yaxından iştirak edərək, layiqli namizəd olan Cənab İlham Əliyevə səs verəcəklər".

Tədbirin sonunda xatirə şəkli çəkilib, bununla da tədbir öz işini başa vurub.

## Xalq öz alternativsiz lideri olan Cənab İlham Əliyevi yenidən Prezident seçəcək!

Yeni Azərbaycan Partiyası Siyəzən rayon təşkilatı YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Məşrif, Zarat və





Həmyə kəndlərində seçicilərlə görüşlər keçirib.

Tədbiri giriş sözü ilə açan YAP Siyəzən rayon təşkilatının sədri Etibar Heydərov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində, Azərbaycanın inkişafı yolunda əmin addımlarla irəlilədiyini diqqətə çatdırıb: "Azərbaycanın bütün sahələrdə çoxsaylı uğurlar əldə etməsini təmin edən amil Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasətidir. Bu siyasətin davamlı olması və ölkəmizin yeni nailiyyətlər əldə etməsi üçün yenə də Cənab İlham Əliyevə səs veməliyik. Siyəzən ictimaiyyəti hər zaman Prezident İlham Əliyevi dəstəkləyib və aprelin 11-də bir daha bu mövqeyimizi nümayiş etdirəcəyik".

Ardı Səh. 12

# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli Səh. 11

Tədbirdə çıxış edən “Yeni Azərbaycan” qəzetinin Baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu 700 mindən çox üzvü olan Yeni Azərbaycan Partiyasının ümumxalq partiyası olduğunu və partiyanın Sədri Cənab İlham Əliyevin Azərbaycan xalqının namizədi olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan çoxsaylı nailiyyətlər əldə edib, ölkəmizin dayanıqlı inkişafı təmin edilib, beynəlxalq mövqeyi daha da möhkəmlənib: “Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, Azərbaycanın iqtisadi qüdrətinin artmasını təmin edib”.

Millət vəkili əlavə edib ki, Prezident İlham Əliyev Azərbaycanda ictimai-siyasi sabitliyi təmin edib, ölkəmizin milli maraqlarını qoruya bilib, mürəkkəb tarixi bir mərhələdə Azərbaycanın sabitlik adası kimi beynəlxalq müstəvidə mövqeyinin möhkəmlənməsinə nail ola bilib.

Milli Məclisin deputatı Tahir Süleymanov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin nəticəsi kimi, ötən illər ərzində, ölkəmizin valyuta ehtiyatları artıb, müxtəlif sahələri əhatə edən layihələr uğurla reallaşdırılıb və islahatlar davam etdirilib: “Dünyada maliyyə-iqtisadi böhranın olduğu şəraitdə Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafını təmin edib, nəzərdə tutulan bütün proqramlar, o cümlədən, infrastruktur layihələri müvəffəqiyyətlə icra olunub. Bütün bunlar əhalinin həyat şəraitinin daha da yaxşılaşmasını təmin edib”.

Azərbaycan xalqının mütləq əksəriyyətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti dəstəklədiyini diqqətə çatdıran millət vəkili əlavə edib ki, hər bir vətəndaş dövlətin yüksək diqqət və qayğısını öz üzərində hiss edir: “Güclü sosial siyasət insanların rifahını yüksəldir. Buna görə də, əminliklə deyə bilərik ki, aprelin 11-də Azərbaycan xalqının seçimi, məhz Cənab İlham Əliyev olacaq”.

Daha sonra çıxış edən seçicilər aprelin 11-də Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Gəncəlilərin seçimi Cənab İlham Əliyevdir!

Aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Gəncə şəhər təşkilatı Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası






çərçivəsində seçicilərlə görüş keçirib. Görüş Rüstəm Cəfərovun ifasında “Azərbaycan” mahnısının sədaları altında başlayıb.

YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı məlumat verib, YAP-ın namizədi Cənab İlham Əliyevin zəngin həyat yolundan, Onun Azərbaycan dövlətçiliyi üçün həyata keçirdiyi misilsiz xidmətlərdən, həmçinin, Gəncədə aparılan abadlıq- quruculuq işlərindən danışıb. Bildirib ki, Prezident İlham Əliyevin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Həyata keçirilən siyasi kurs, aparılan islahatlar, yeniliklər vətəndaşlarımızın sosial rifahının yüksəldilməsinə, onların həyat şəraitinin daha da yaxşılaşdırılmasına və sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb. Qədirbilən Gəncə sakinləri, hər zaman olduğu kimi, bu dəfə də seçkilərdə yüksək fəallıqla iştirak edəcək, öz seçimlərində dövlətçiliyimizə, birliyimizə, inkişafımıza səs verəcəklər.

YAP Gəncə şəhər təşkilatının qadınlar şurasının sədri, millət vəkili Pərvin Kərimzadə, millət vəkili Musa Quliyev, YAP Gəncə şəhər təşkilatının sədr müavini, AMEA-nın akademik katibi Fuad Əliyev, Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, professor İbrahim Cəfərov çıxış edərək, ölkəmizdə gedən dinamik inkişafdan danışaraq, Cənab İlham Əliyevin prezident seçkilərində ən real namizəd olduğunu bildiriblər və xüsusilə, vurğulayıblar ki, gəncəlilər hər zaman prezidentin siyasətini dəstəkləyib və aprelin 11-də bir daha bu dəstəyi göstərərək, Azərbaycanın daha böyük zirvələri fəth etməsinə zəmin yaradacaqlar.

Yüzlərlə seçicinin iştirak etdiyi görüşdə seçicilər yekdilliklə Cənab İlham Əliyevə səs verəcəklərini bəyan ediblər.

Böyük ruh yüksəkliyi ilə keçən seçicilərlə görüş xalq artisti Samir Cəfərovun ifasında “Xalq Heydər söyləyəcək” mahnısı ilə başa çatıb.

## Tərtərlilərin birmənalı seçimi - İlham Heydər oğlu Əliyevdir!

Tərtər rayonunun mərkəzi stadionunda Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində möhtəşəm mitinq-konsert keçirilib.







Mitinqi giriş sözü ilə YAP Mərkəzi Seçki Qərargahının Tərtər rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Ramiz Şabanov açaraq, 2018-ci ilin 11 aprelində keçiriləcək prezident seçkilərinin rayonda böyük coşqu və bayram əhval-ruhiyyəsi ilə keçiriləcəyini bildirib. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevin son 15 ildə ölkə Prezidenti kimi fəaliyyəti, gördüyü işlər, Azərbaycanın dünya dövlətləri arasında layiqli yer tutması üçün yürütdüyü daxili və xarici siyasət bu gün Vətənimizin hər yerdə sayılan, hesablaşılan bir dövlətə çevrilməsini təmin edib: “Cənab İlham Əliyevin daim xalqın yanında olması, əhalinin sosial-rifah halının durmadan yaxşılaşdırılması istiqamətində atacaq addımları, təmin edəcək fərman və sərəncamlar imzalaması bir daha sübut edir ki, Möhtərəm Prezident, özünün qeyd etdiyi kimi, hər bir Azərbaycan vətəndaşının Prezidentidir”.

Seçicilərlə görüşdə çıxış edən Milli Məclisin deputatı Bəxtiyar Rzayev və akademik Vaqif Abbasov da, öz növbələrində, YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin tarazlı xarici siyasəti nəticəsində dövlətimizin daha da qüdrətlənməsi üçün ardıcıl iş aparıldığını, Azərbaycanın dünya dövlətləri içərisində ən stabil və təhlükəsiz dövlətə çevrildiyini Azərbaycan xalqının sülh və əmin-amanlıq şəraitində yaşayıb-yaratdığına hərtərəfli şəraitin formalaşdığını bildiriblər.

Kütləviliyi ilə seçilən mitinq-konsertdə, bir daha vurğulanıb ki, tərtərlilər budəfəki prezident seçkilərində də, birmənalı olaraq, Ulu Öndər Heydər Əliyevin ideyalarının həyata keçirilməsində qətiyyətli mövqe nümayiş etdirən İlham Heydər oğlu Əliyevə səs verəcəklər.

## Cəlilabad seçiciləri yekdilliklə Cənab İlham Əliyevə səs verəcəklər!

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Cəlilabad rayon şöbəsi partiyanın namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat tədbirləri çərçivəsində seçicilər-





lə görüşləri davam etdirir. Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Xanəgah və Mikayıllı ərazilərində seçicilərlə növbəti görüşlər keçirilib.

Görüşləri giriş sözü ilə rayon təşkilatı idarə heyətinin üzvü Baxış Mustafayev açaraq, Cənab İlham Əliyevin respublikaya rəhbərlik etdiyi 15 ilə yaxın müddət ərzində bütün sahələrdə nəzərəçarpacaq nailiyyətlərə nail olunduğu, əhalinin sosial vəziyyətinin kökündən yaxşılaşdığını, ölkədə siyasi sabitliyin daha da möhkəmlənməsi, demokratiyanın inkişafı və insan azadlığına daim diqqət yetirilməsi məsələlərindən ətraflı məlumat verib. Bildirib ki, bütün seçicilərimiz seçkilər günü, məhz Cənab İlham Əliyevə səs verəcəklər. “Mən sizi seçkilərdə fəal iştirak etməyə, partiyamızın layiqli namizədinə - İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıram”- deyə B.Mustafayev çağırış edib.

Tədbirdə çıxış edən ərazi ilk partiya təşkilatının sədri Malik Əliyev, təhsil işçiləri Yusif Heydərov və Bəylər Miriyev, hər iki kəndin sakinləri - torpaq mülkiyyətçisi Ərəstun Ağayev, Sücayət Səmədov, torpaq mülkiyyətçisi Ramiz Dadaşov, təhsil işçiləri Əlişirin Teymurov, Ramin Şükürov və başqaları Cənab İlham Əliyevin həyata keçirdiyi bütün tədbirləri ürəkdən bəyəndiklərini və 11 aprel 2018-ci ildə keçiriləcək seçkilərdə, məhz Cənab İlham Əliyevə yekdilliklə səs verəcəklərini bildiriblər.

Təbliğat-təşviqat xarakterli növbəti görüş rayonun Privolnoye kənd ərazisində baş tutub. Tədbiri giriş sözü ilə rayon təşkilatı idarə heyətinin üzvü Etibar Sadıqov açaraq, tədbirin 11 aprel 2018-ci ildə keçiriləcək Azərbaycan Respublikası prezident seçkiləri ilə bağlı olduğunu deyib: “Hamınıza yaxşı məlumdur ki, Cənab İlham Əliyevin 15 ilə yaxın ölkə Prezidenti işlədiyi müddətdə ölkəmiz sürətlə inkişaf etmiş, onun beynəlxalq nüfuzu xeyli artmış, respublikada bütün sahələrdə mühüm islahat tədbirləri həyata keçirilmiş, əhalinin güzəranı xeyli yaxşılaşmış, paytaxt Bakıda və bütün regionlarda, eləcə də, Cəlilabadda tikinti, quruculuq-abadlıq işləri geniş vüsət almış, ölkənin siması müsbətə doğru xeyli dəyişilmiş, müdafiə qüdrətimiz nəzərəçarpacaq dərəcədə yüksəlmişdir”. O, seçiciləri seçkilər günü daha fəal olmağa, seçkilərdə yaxından iştirak etməyə və məhz Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə çıxış edən ərazi ilk partiya təşkilatının sədri Əliyar Səlimov, təhsil işçiləri Həsən Həsənov, Azər Rüstəmov və Camal Babayev, tibb işçisi Zivər Əliyeva, torpaq mülkiyyətçisi Ələsgər İmanov və başqaları ölkə rəhbəri Cənab İlham Əliyevin çoxşaxəli fəaliyyətini yüksək dəyərləndirmiş, seçkilər günü yekdilliklə, məhz Cənab İlham Əliyevə səs verəcəklərini bəyan etmişlər: “Dəyişilməz seçimimiz bəllidir - Yeni Azərbaycan Partiyasının alternativsiz namizədi Cənab İlham Əliyev!”





# Seçkilərin qalibi uğurlu inkişaf strategiyasının müəllifi olan cənab İlham Əliyev olacaq

*Milli Məclisin deputatı Tahir Süleymanovun yap.org.az-a müsahibəsi*

***-Tahir müəllim, aprelin 11-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Hazırda seçki kampaniyasının təbliğat-təşviqat mərhələsidir. Seçicilərlə görüşlərdə ötən dövr ərzində bütün sahələrdə görülən işlərin hesabatı verilir. Bu baxımdan, ölkəmizin iqtisadi inkişafı istiqamətində görülən işlərlə bağlı nə deyə bilərsiniz?***

- Azərbaycanın cənab İlham Əliyevin rəhbərliyi ilə keçdiyi inkişaf yolunun ən mühüm keyfiyyətlərindən biri sabitlik və tərəqqinin paralel olmasıdır. İnkişafın təməli kimi dəyərləndirilən sabitliyin ölkəmizdə yüksək səviyyədə qorunması uğurların bir-birini əvəzləməsinə geniş imkanlar açır. Bu gün Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin sayı sürətlə artır. Ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadəsi beynəlxalq əhəmiyyətli layihələrin icrasına, eyni zamanda, maliyyə imkanlarının artmasına yol açır. Müstəqil siyasət aparmaq, iqtisadi, o cümlədən enerji sahəsində müstəqil təşəbbüsləri irəli sürmək maliyyə, iqtisadi və siyasi cəhətdən böyük imkanlar tələb edir. Bu gün Azərbaycanın iştirakı olmadan regionda enerji, həmçinin nəqliyyat və iqtisadiyyat sahəsində heç bir təşəbbüs irəli sürülə bilməz. Azərbaycan enerji resurslarından əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi, milli maraqlarımızın təmin edilməsi və ölkəmizin qüdrətlənməsi naminə istifadə edir. Bütün bunlar Azərbaycanı güclü, qüdrətli, müasir və sürətli inkişafa malik ölkəyə çevirib. Şübhəsiz ki, seçicilər bunu görür və yüksək dəyərləndirirlər. Azərbaycan vətəndaşları cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti dəstəkləyirlər.

***-Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi strategiyasının əsas istiqamətlərindən birini aqrar sahənin inkişafı təşkil edir. Bu sahədə əldə olunan nəticələri necə dəyərləndirirsiniz?***

-Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-2018-ci illər ərzində dayanıqlı və dinamik inkişafa malik olan sahələrdən biri məhz aqrar sektor olmuşdur. Kənd təsərrüfatının inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, əldə edilən nailiyyətlər iqtisadiyyatın inkişafına təkan vermişdir. Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi bu sahənin inkişafının keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur. Ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədilə ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatları təşkil edilir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində bölgələrdə müasir infrastruktur qurulmuş, kəndlərarası avtomobil yollarının şəbəkəsi genişləndirilmişdir. Bir əsas məqamı da qeyd edək ki, idarəetmədə səmərəliliyin və şəffaflığın artırılması üçün elektron kənd təsərrüfatı sistemi tətbiq edilməkdədir. Bundan başqa, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə ölkənin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əks olunub. Bu, kənd təsərrüfatı sahəsində həm orta, həm də uzunmüddətli dövr üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olmasını ifadə edir. Strateji Yol Xəritəsinin 2016-2020-ci illər ərzində həyata keçirilməsi rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması üçün 9 strateji hədəfin reallaşdırılması nəzərdə tutulur. Bu strateji hədəflər ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi, kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zəncirinin həlqələri üzrə artırılması, kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və müvafiq resurslara, o cümlədən maliyyəyə çıxışın asanlaşdırılması, kənd təsərrüfatı sahəsində elmi təminatın və təhsilin keyfiyyətinin yüksəldilməsi və məsləhət-informasiya xidmətləri sisteminin inkişaf etdirilməsi, bazar infrastrukturunun inkişafı və istehsalçıların bazara çıxışının asanlaşdırılması, təbii resurslardan dayanıqlı istifadə mexanizmlərinin formalaşdırılması, aqrar sahə üzrə biznes mühitinin təkmilləşdirilməsi və kənd yerlərində rifahın yüksəldilməsi məsələlərini əhatə edir. Hər bir strateji hədəfin reallaşdırılması üçün 2016-2020-ci illər üzrə prioritet istiqamətlər müəyyən olunub. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda həyata keçiriləcək prioritetlərin 2020-ci ildə real ÜDM-i birbaşa 575 milyon manat, dolayı şəkildə isə 660 milyon manat olmaqla ümumilikdə 1235 milyon manat artıracağı və təxminən 20 min yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır.



Aqrar sektorun inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında da əsas istiqamətlərdən biri kimi nəzərdə tutulub. Milli Məclisin aqrar siyasət komitəsi məhz İnkişaf Konsepsiyasından irəli gələn vəzifələrin icrasına xidmət edən qanunların hazırlanmasına və qəbuluna səy göstərir. Yeni hədəflər inkişaf üçün əsasdır. Bu baxımdan deyə bilərəm ki, qarşıda görüləcək işlərimiz çoxdur və birgə səylər əsasında onların icrasına nail olacağıq.

***-Regionların sosial-iqtisadi inkişafı istiqamətində əldə edilən nailiyyətlər ölkəmizin hərtərəfli inkişafını daha da sürətləndirib. Bu sahədə görülmüş işlərin nəticələrini necə qiymətləndirmək olar?***

-Azərbaycanın inkişafının mühüm xüsusiyyətlərindən biri islahatların və tərəqqiyə xidmət edən tədbirlərin paralel şəkildə və mütəmadi olaraq həyata keçirilməsidir. Bu baxımdan, regionların sosial-iqtisadi inkişafı istiqamətində reallaşdırılan islahat xarakterli tədbirlər müstəsna əhəmiyyətə malikdir. Regionların malik olduğu potensialdan səmərəli istifadə ölkənin hərtərəfli inkişafını sürətləndirib. Bu gün bölgələrdə aparılan quruculuq, abadlıq işlərinə diqqət yetirsək, tərəddüdsüz deyə bilərik ki, ötən hər gün mühüm yeniliklə yadda qalır. Regional inkişaf proqramları çərçivəsində görülən işlər hərtərəfli inkişafı daha da sürətləndirir, ən əsası, inkişaf, tərəqqi, quruculuq, abadlıq baxımından bölgələr arasında hansısa fərq görmək mümkün deyil. Bütövlükdə, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən regionların sosial-iqtisadi inkişaf kursu nəticəsində bölgələrin siması əhəmiyyətli dərəcədə dəyişib, müsbət meyillər və inkişaf göstəricilər başlıca reallıqları təşkil edir.

***-Tahir müəllim, seçki kampaniyası ilə əlaqədar təmsil etdiyiniz bölgədə seçicilərlə görüşlərdə iştirak edirsiniz. İnsanların seçki əhval-ruhiyyəsi necədir?***

Aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkilərinə olduqca böyük diqqət və maraq göstərilir. Seçicilərlə görüşlərdə ötən müddət ərzində cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər - görülən işlər diqqətə çatdırılır, Azərbaycanın dayanıqlı inkişafının davamlı olacağına dair əminlik ifadə olunur. Seçicilərdə böyük ruh yüksəkliyi müşahidə edilir, onlar cənab İlham Əliyevin rəhbərliyi ilə görülşüm işləri təqdir edir, bu siyasətə dəstək nümayiş etdirirlər. Birmənalı şəkildə qeyd edilir ki, seçkilərin qalibi məhz uğurlu inkişaf strategiyasının müəllifi olan cənab İlham Əliyev olacaq. Bir sözlə, Azərbaycan seçicisi öz səsini Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə verəcəyini qətiyyətlə ifadə edir!

## Kürdəmirlilər "İlhamla irəli" deyir



Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat - təşviqat kampaniyası çərçivəsində Kürdəmir rayonunun Topalhəsənli, Atakişili kəndlərində, həmçinin, rayon Mədəniyyət Evində rayon ağsaqqalları və gəncləri ilə görüşlər keçirilmişdir. Görüşlərdə Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Kürdəmir rayon şöbəsinin sədri Ağali Kərimli çıxış edərək, qeyd edib ki, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə genişmiqyaslı quruculuq-abadlıq işləri, infrastruktur layihələri reallaşdırılır. Azərbaycan dövləti və xalqı, o cümlədən, Yeni Azərbaycan Partiyası qarşıdan gələn prezident seçkilərinə böyük uğurlarla gedir.



A.Kərimli, əmin olduğunu bildirib ki, bütün bu və digər uğurlara görə, müdrik xalqımız mövcud inikişafın davamlı olmasını istəyərək, 11 aprel tarixində Cənab İlham Əliyevə yenidən etimad göstərəcəklər.

Tədbirlərdə Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü , Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov, Milli Məclisin İqtisadi Siyasət Komitəsinin sədri , akademik Ziyad Səmədzadə, Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Elman Nəsirov çıxış edərək bildirdilər ki, biz şərəfli bir yolla, inamla, qururla və iftixarla irəliləyirik. İllərdir, bu yol bizi qələbələrə, yeni uğurlara və yeni nailiyyətlərə aparır. Bu siyasətin davamlı olması üçün yenə də Cənab İlham Əliyevə səs verməliyik. Biz əminik ki, bu nailiyyətlər silsiləsində növbəti mərhələ, qarşıdan gələn prezident seçkiləridir. Kürdəmir seçiciləri aprelin 11-də əminliklə Cənab İlham Əliyevə yekdilliklə səs verəcəklər. Tədbirdə seçicilərdən Bəhram Dünyamalıyev, Neman Nuriyev, Əvəz Həsənov, rayon ağsaqqallarından Ayyət Nəsirov, Hacı Füzuli, Abduləziz Hüseynov, Novruz Umudov və gənclərdən Məhəmməd Heydərli çıxış edərək vurğulayıblar ki, hamılıqla 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində seçki məntəqələrinə gələrək, Yeni Azərbaycan Partiyasının namizədi, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı İlham Heydər oğlu Əliyevə səs verəcəyik. Bununla da, bir daha işıqlı aydın gələcəyə, sabitliyə, əmin-amanlığa və dinamik inkişafa səs vermiş olacağıq.

## İmişli seçiciləri davamlı inkişafa səs verəcəklər



İmişli rayonunda YAP-nın prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası davam edir. Növbəti tədbir rayonun Yalavac, Rəsullu, Məhəmmədli, Xoşçobanlı və Murğuzallı kəndlərinin seçiciləri ilə keçirilib. Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının İmişli rayon şöbəsinin sədri Səfa Ağayev geniş və ətraflı çıxış edərək, YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 2003-2018-ci illər ərzində xalq və dövlət üçün gördüyü faydalı işlərdən, həyat keçirdiyi irimiqyaslı layihələrdən, Azərbaycanın dünyada yerinin və rolunun möhkəmlənməsi istiqamətindəki fəaliyyətindən söhbət açdı. Əmin olduğunu bildirdi ki, qədirbilən xalqımız uğurların davam etdirilməsi üçün 11 aprel prezident seçkilərində məntəqələrə gələrək, Cənab İlham Əliyevə səs verəcəklər.



Seçicilərlə görüşdə YAP İmişli rayon təşkilatının idarə heyətinin üzvü Güloğlan Xudiyev, şura üzvü Həsən Hüseynov, İmişli rayon "Xalq sözü" qəzetinin baş redaktoru Səməd İsmayılov, kənd ağsaqqallarından Yusif Mövsümov, Xalıq Əliyev, Baxşəli Nuruşov o cümlədən, ziyalılar və gənclər çıxış edərək, YAP-ın namizədi Cənab İlham Əliyevə yekdilliklə səs vercəklərini bəyan etdilər.

# Cənab İlham Əliyevin siyasətinin uğurları prezident seçkilərinin nəticələrini əvvəlcədən şərtləndirir

*Milli Məclisin deputatı, Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərovun yap.org.az-a müsahibəsi*

***- Nizami müəllim, ölkəmiz prezident seçkiləri ərəfəsindədir. Hazırda Yeni Azərbaycan Partiyası "İlhamla irəli!" şüarı ilə təbliğat kampaniyası aparır. Sizin bu seçki ilə bağlı düşüncələriniz nədən ibarətdir?***

- Əlbəttə ki, prezident seçkilərindən danışarkən, hər kəs üçün günümüzün reallığı məlumdur. Yəni, Yeni Azərbaycan Partiyasının Sədri, dövlət başçısı İlham Əliyevin nüfuzu o qədər yüksəkdir ki, indidən seçkinin nəticələri haqqında fikir yürütmək mümkündür. Prezident İlham Əliyevin vətəndaşlar arasında nə qədər böyük hörmət və inama sahib olması, həm ölkə daxilində, həm də xaricdə də yaxşı məlumdur. Bunun da çox ciddi əsasları var. Dünyada baş verən mürəkkəb proseslərin fonunda, Azərbaycan yüksək dinamika ilə inkişaf edir, ictimai-siyasi sabitlik təmin olunub, ölkədə lider-xalq birliyi sarsılmazdır. Bütün bunlar cənab İlham Əliyevin həyata keçirdiyi mükəmməl siyasətin nəticəsidir. Azərbaycan Prezidentinin, partiyamızın Sədrinin gördüyü möhtəşəm, əzəmətli işlər nəticəsində Azərbaycan tarixində olmadığı qədər güclü dövlətə çevrilib.

Daxili siyasətə gəlincə, Azərbaycanda həyata keçirilən quruculuq işləri göz önündədir. Elə bir bölgəmiz yoxdur ki, orada abadlıq, quruculuq işləri getməsin. Həmçinin, sosial-iqtisadi sahədə də böyük nailiyyətlər əldə olunub, bölgələrdə xeyli sayda iş yerləri açılıb, məktəblər, tibb ocaqları, mədəniyyət və idman obyektləri tiklib istifadəyə verilib. Bütün bunlar vətəndaşlarımızın rifahı, sağlamlığı, yüksək biliklərə yiyələnməsi üçündür. Əlbəttə ki, xalqımız cənab İlham Əliyevin bu siyasətini görür və ürəkdən dəstəkləyir.

Cənab Prezident həmçinin, milli mənəvi dəyərlərimizin, ana dilimizin qorunması və inkişaf etdirilməsi sahəsində də misilsiz xidmətlər göstərir. Bu barədə faktlar kifayət qədər var və biz zamanzaman bu mövzularla bağlı ətraflı söhbət etmişik. Cənab İlham Əliyevin xarici siyasətində isə daim dövlət və milli maraqlarımız qəti şəkildə qorunur. Bu baxımdan, ən təqdirolunası məqamlardan biri dövlətimizin başçısının türk dövlətləri və xalqlarının birliyinin gücləndirilməsi istiqamətində göstərdiyi səylər və təşəbbüslərdir. Məhz bu siyasətin nəticəsidir ki, türk birliyi son illər daha da güclənib və bu proses irəliyə doğru getməkdədir. Qeyd etdiyim kimi, bu uğurun əldə olunmasında Azərbaycan Prezidentinin müstəsna xidmətləri var. Ona görə də, cənab İlham Əliyev bu gün türk dünyasının liderlərindən biri kimi qəbul olunur.

Beləliklə, Azərbaycan xalqı Prezidentimizin bütün sahələr üzrə uğurlu siyasətini görür və daim dəstəkləyir. İndiyə qədər keçirilən seçkilərdə cənab İlham Əliyevin parlaq qələbə qazanması məhz xalqımızın Ona olan yüksək inamının ifadəsidir. Bu baxımdan, aprelin 11-də keçiriləcək növbəti prezident seçkilərində də cənab İlham Əliyevin qələbə qazanacağı şübhəsizdir. Hətta bu faktı Onun opponentləri də etiraf edirlər.

***- Prezident İlham Əliyevin siyasətində İslam həmrəylinin gücləndirilməsi də əsas istiqamətlərdən biridir. Nəinki, Azərbaycan xalqı, eləcə də bütün İslam dünyası cənab İlham Əliyevin bu yöndəki səylərini yüksək dəyərləndirir...***



- İslam dini bizim xalq kimi formalaşmağımızda çox ciddi rol oynayıb. Ümumiyyətlə, türk xalqlarının mütləq əksəriyyətinin xalq kimi formalaşmasında İslam dini mühüm rol oynayıb. Müasir dövrdə də Azərbaycan dövləti və xalqı İslam həmrəyliyində vacib rol oynayır. Azərbaycan inkişaf etmiş dövlətdir və müsəlman dünyasına qarşı hər hansı konyunktur müdaxilələr olursa, ölkəmiz buna dərhal etiraz edir. Eyni zamanda, müsəlman olduqlarına görə insanlara harda terror damğası vurulursa, Azərbaycan bu yanaşmaya qarşı çıxır. Azərbaycan İslam dünyasındakı inkişafa töhfələr verir və İslam ölkələri ilə bizim çox sıx əlaqələrimiz var. Beynəlxalq İslam təşkilatlarında da biz fəal iştirak edirik. Eyni zamanda, biz İslamı milli-mənəvi dəyər kimi qoruyuruq. Qısa müddət ərzində ölkəmizdə nə qədər ibadətgahlar, məscidlər tikilib və ya bərpa olunub. Bunların hamısı müasir dövrdə real olaraq dinimizə münasibətimizdir.

Prezident İlham Əliyev 2017-ci ili "İslam həmrəyliyi ili" elan etməklə bütün İslam dünyasına ciddi mesaj verdi. Həmin il çərçivəsində yerli və beynəlxalq tədbirlər keçirildi. Bütün müsəlman dünyası cənab İlham Əliyevin həmrəylik təşəbbüsünü dəstəklədi.

Biz İslam həmrəyliyini iki mənada başa düşürük. Birincisi, İslam daxilində həmrəylik, ikinci isə, İslamın dünyada yaratdığı həmrəylikdir. İslam sonuncu din olduğuna görə həmişə bütün dinlərə humanist münasibət bəsləyib, hörmətlə yanaşıb. Bu gün bütün bunlar Azərbaycan dövlətçiliyinin və ideologiyasının təcrübəsində mövcuddur.

***- Necə hesab edirsiniz, Prezident İlham Əliyevin xalqımız tərəfindən birmənalı olaraq dəstəklənməsində azərbaycançılıq ideologiyasının yeni mərhələdə uğurla davam etdirilməsi nə dərəcədə rol oynayır?***

- Azərbaycan xalqı və dövləti tərəfindən azərbaycançılıq ideologiyasının tətbiqi, müdafiəsi və inkişaf etdirilib təkmilləşdirilməsi dünya miqyasında çox müxtəlif ideoloji proseslər kontekstində baş verdiyi hamıya məlumdur. Azərbaycan xalqının milli ideologiyasının nəinki danılmaz, hətta mübahisəsiz bir üstünlüyü vardır ki, onun mahiyyətində üç tamamilə humanist dəyər komponenti ifadə olunur. Bunlar etnik mənsubiyyət, dini mənsubiyyət və dünyəvi mənsubiyyətdir. Bu ideologiyada öz əksini tapmış fəlsəfədə, eləcə də onun mənsub olduğu xalqın təfəkküründə nə etnik məhdudluq, nə dini dözümsüzlük, nə də antihumanizm yoxdur.

O var ki, Azərbaycan xalqı da, dünyanın bütün digər xalqları kimi, müəyyən bir etnik mənşəyə, müəyyən bir dini dünyagörüşə mənsubdur və bütün digər xalqlar kimi, müasir dünyanın üzvi tərkib hissəsidir. Tarixi talələri elə gətirib ki, azərbaycanlıların bu gün yalnız beşdən biri müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Təxmini hesablamalara görə, dünya azərbaycanlılarının beşdən dördü öz tarixi Vətənində yüz illərlə necə məskun olmuşdursa bu gün də məskundur. Ona görə də əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş bir siyasətin - Dünya azərbaycanlılarının həmrəyliyinin miqyasının genişləndirilməsi siyasətinin müasir mərhələdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi heç bir alternativ qəbul etməyən bir zərurət olub azərbaycançılıq ideologiyasını zənginləşdirən, ona güclü enerji verən, onun məzmununu bütövləşdirən konseptual hadisədir.

Hər şeydən əvvəl ona görə ki, dünyanın harasında məskunlaşmasından asılı olmayaraq, kiçik istisnaları nəzərə almasaq, azərbaycanlılar eyni etnik mənşəyə, eyni dinə mənsub olub eyni mental xüsusiyyətlərin, eyni adət- ənənələrin daşıyıcısıdırlar. Əlbəttə, qloballaşan müasir dünyada azərbaycanlıların siyasi- inzibati sərhədləri aşaraq birbirlərilə sıx ünsiyyətə girmələri, ümummilli maraqlarını humanizm, insan hüquqları çərçivəsində təmin etmələri yalnız milli yox, həm də insani bir ehtiyacdır.

Bu gün Prezident İlham Əliyev tərəfindən azərbaycançılıq ideologiyasının daha da gücləndirilməsi nəticəsində ölkəmizdə yaşayan bütün xalqlar bu ideologiya ətrafında sıx birləşib. Dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri cənab İlham Əliyevi dəstəyləyir və Onu öz liderləri kimi qəbul edirlər.

***- Nizami müəllim, hazırda seçki kampaniyasının təbliğat-təşviqat mərhələsi davam edir. Seçicilərlə keçirdiyiniz görüşlərlə bağlı təəssüratlarınız necədir?***

- Cənab İlham Əliyevin seçki kampaniyası ilə əlaqədar yerlərdə seçicilərlə çoxsaylı görüşlər keçirilir. Görüşlər bir daha əminlik yaradır ki, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi birmənalı olaraq xalqın namizədidir. Çünki partiyamızın Sədri, ölkə Prezidenti İlham ƏliyevAzərbaycan dövlətçiliyinin daha da gücləndirilməsi, rifah, sabitlik naminə yorulmaz fəaliyyət göstərir.

Təmsil etdiyim Ağstafa rayonunda böyük abadlıq və quruculuq işləri həyata keçirilib. Cənab Prezident dəfələrlə rayonda olub, bir çox iqtisadi, sosial, mədəni obyektlərin açılışında şəxsən iştirak edib. Həmçinin, rayonun kəndlərinin böyük hissəsi qazlaşdırılıb, yeni yollar çəkilib və s. Bu quruculuq prosesi hazırda da davam etməkdədir.

Ağstafa əhalisi dövlət başçısının rayonumuza göstərdiyi qayğını yüksək qiymətləndirir və 11 aprel seçkilərində cənab İlham Əliyevə səs verəcəklərini bəyan edirlər. Mən bütün seçiciləri seçki günü fəal olmağa və alternativsiz siyasət olan Heydər Əliyev siyasətinə və bu siyasəti layiqincə davam etdirən cənab İlham Əliyevə səs verməyə çağırıram.

## Biləsuvarlı qadınlar, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər!





11 aprel 2018-ci il tarixdə keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatı da təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası çərçivəsində növbəti görüş rayon Mədəniyyət Mərkəzində Biləsuvar qadınları ilə keçirilib.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Biləsuvar rayon şöbəsinin sədri Kamil Mirzəyev açaraq, qarşıdan gələn prezident seçkiləri ilə bağlı qeyd edib ki, 2003-2018-ci illər ərzində Cənab İlham Əliyevin ölkə Prezidenti kimi gördüyü işlər göz qabağındadır. "Bütün bu illər ərzində Azərbaycan çox böyük uğurlara imza atıb"-deyə qeyd edən natiq vurğulayıb ki, ölkənin inkişafı, insanların rifahı naminə həyata keçirilən islahatlar prezidentliyə namizəd Cənab İlham Əliyevin seçki proqramının əsas mahiyyətini təşkil edir: "Bütün bu görülən işlərə görə, əminliklə deyə bilərəm ki, biləsuvardan olan qadınlar, birmənalı olaraq, Cənab İlham Əliyevə səs verəcəklər".

Tədbirdə çıxış edən millət vəkili, Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Xanhüseyn Kazımlı qeyd edib ki, Prezident İlham Əliyevin hakimiyyətdə olduğu bütün illər ərzində regionların inkişafı diqqət mərkəzində olub: "Ölkə rəhbəri Cənab İlham Əliyevin 15 il ərzində regionların sosial-iqtisadi inkişafını özündə əks etdirən dövlət proqramları şəhərlərimizin və kəndlərimizin daha da yüksək səviyyədə abadlaşmasına, bölgələrdə yeni iş yerlərinin açılmasına şərait yaratmışdır".

Deputat əmin olduğunu bildirib ki, biləsuvarlı seçicilər, eyni zamanda, Biləsuvar qadınları bu seçkilərdə yekdilliklə Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə Azərbaycan Dillər Universitetinin müəllimi, filologiya elmləri doktoru, professor Fikrət Cahangirov çıxış edərək bildirib ki, 2003-cü ildən keçən müddət ərzində ölkə Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi sosial islahatlar nəticəsində təhsil, səhiyyə, mədəniyyət və idman sahəsində çox böyük uğurlara imza atıb. "Azərbaycan bu gün bütün dünyada multikultural və tolerantlıq mərkəzinə çevrilib"-deyə qeyd olunub.

Çıxış edən Milli Məclisin deputatı, parlamentin təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üvü Mirkazım Kazımov bildib ki, ölkə Prezidenti Cənab İlham Əliyevin hakimiyyəti illərində Azərbaycan, nəinki Zaqafqaziya regionunda eyni zamanda, MDB məkanında lider dövlətə çevrilib. O, bütün bu həyata keçirilən dinamik inkişafa görə, əminliklə bildirib ki, Azərbaycan xalqı, Biləsuvar əhalisi Cənab İlham Əliyevə səs verəcəkdir".

Çıxış edən seçicilərdən Baxçagül Əliyeva, Rəfiqə Cəfərova, Tükəz Qurbanova, Afayət Səfərova və başqaları da qeyd ediblər ki, 11 aprel 2018-ci il tarixdə keçiriləcək seçkilərdə biləsuvarlı qadınlar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

# Azad, ədalətli və şəffaf seçkilər

***Azərbaycan Prezidenti İlham Əliyev 2005-ci il oktyabrın 25-də parlament seçkilərinə dair müzakirədəki nitqində demişdir:***

Azərbaycanda ədalətli və şəffaf seçkilərin keçirilməsi bizim hamımızın marağındadır. Çox sevindirici haldır ki, iki mindən artıq insan öz gücünü sınamaq üçün bu seçkilərə qatılıbdır. Ondan sonrakı mərhələ də, hesab edirəm ki, bütövlükdə, uğurlu olmuşdur. Təbliğat-təşviqat kampaniyasında da heç bir problem müşahidə edilmirdi. Bütün namizədlərə eyni bərabər şərait yaradılmışdır. Televiziya vasitəsilə hər bir namizəd öz seçicilərinə müraciət etmişdir. Heç bir ayrı-seçkiliyə yol verilməmişdir. Siyasi əqidəsindən, partiya mənsubiyyətindən asılı olmayaraq, bütün namizədlər həm pulsuz, həm də pullu efir vaxtından istifadə edə bilirlər. Bu günə qədər davam edən kampaniya, onu göstərir ki, hər bir namizəd sərbəst, açıq şəkildə öz seçicilərinə müraciət edir. Hesab edirəm ki, bu, çox müsbət bir haldır. Biz hamımız görürük ki, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti, İctimai Televiziyada və özəl kanallarda kampaniya çox açıq və şəffaf şəkildə keçirilir. Eyni zamanda, hər bir namizəd üçün yerlərdə görüşlərin keçirilməsi üçün də lazımi şərait yaradılmışdır. Bildiyimə görə, Azərbaycanın bütün bölgələrində bu görüşlər keçirilir və buna heç bir maneçilik törədilmir.

Mən bu məsələyə dair yerli icra orqanlarına dəfələrlə öz göstərişlərimi vermişəm və demişəm ki, bütün namizədlərə bərabər şərait yaradılmalıdır. Heç bir ayrı-seçkilik qoyulmadan bütün namizədlər açıq havada, qapalı şəraitdə görüşlər keçirmək üçün eyni şəraitlə təmin olunmalıdırlar. Bütövlükdə, deyə bilərəm ki, bu sahədə də çox müsbət mənzərə müşahidə olunur. Ayrı-ayrı şikayətlər istisna olmaq şərtilə, tam əksər hallarda bütün görüşlər azad və sərbəst şəkildə keçirilibdir. Bu, kampaniyanın, bütövlükdə, ədalətli keçməsinə dəlalət edir, bizim niyyətimizi bir daha ifadə edir. Bir də onu göstərir ki, bəyan edilmiş prinsiplər və niyyətlərimiz həyatda öz əksini tapır. Mənim də məqsədim, məhz budur.

Deyə bilərəm ki, bütövlükdə, həm Seçki Məcəlləsinin müddəaları, həm də Sərəncamda əks olunan məsələlər həyatda öz əksini tapır və yerinə yetirilir. Bununla yanaşı, əlbəttə, müxtəlif problemlər də var. Biz dərhal həmin problemlərin aradan qaldırılması üçün tədbirlər görürük və görməliyik. Bu da təbiidir. Çünki Azərbaycan keçid dövrünü yaşayır. Azərbaycanda demokratik cəmiyyətin formalaşması prosesi sürətlə gedir. Bu, çox müsbət istiqamətdə inkişaf edən meyildir. Ancaq şübhəsiz ki, bir gündə, yaxud da bir neçə ayda bu sahədə köklü dəyişikliklərə nail olmaq üçün çox ciddi işlər görülməlidir və görülür. Bu seçki kampaniyası keçmiş seçki kampaniyalarından fərqlənir və hesab edirəm ki, indiki seçkilərin nəticələri də Azərbaycan xalqının iradəsini əks etdirəcəkdir.

Eyni zamanda, müəyyən problemlər də var. Seçki kampaniyası ərzində müəyyən məsələlər ortaya çıxır. Biz gərək hər bir məsələyə operativ reaksiya verək və onun həlli üçün yollar axtaraq. Biz heç bir məsələyə ehkam kimi yanaşmamalıyıq. Fikirləşməliyik ki, seçkilərin ədalətli keçirilməsi üçün əlavə nə edilməlidir. Mən hesab edirəm ki, Seçki Məcəlləsinin mövcudluğu, Mənim Sərəncamım artıq bu sahədə kifayət qədər normal şərait yaradır. Bildiyiniz kimi, seçkiləri müşahidə edən ATƏT-in missiyası da təxminən eyni mövqedən çıxış edir. Onların bəyanatı olmuşdur ki, əgər mövcud Seçki Məcəlləsi və Prezidentin Sərəncamı icra olunarsa, Azərbaycanda demokratik seçkilərin keçirilməsi mümkündür. Eyni zamanda, mövcud olan problemləri biz gərək həll edək. Onların aradan qaldırılması üçün müvafiq göstərişlər veriləcək və qərarlar qəbul ediləcəkdir.

İlk növbədə, seçici vəsiqələrinin seçicilərə paylanılması prosesi bizi qane edə bilməz. Çünki Məndə olan məlumata görə, - yəqin ki, sizdə də bu məlumat var, bir neçə hallarda vətəndaşlara seçici vəsiqəsi paylanılmayıb, yaxud da elə hallar var ki, bir seçiciyə bir neçə vəsiqə göndərilibdir. Elə hallar var ki, ümumiyyətlə, seçici vəsiqəsi göndərilməyibdir. Ümumiyyətlə, seçici vəsiqəsinin tətbiq olunması beynəlxalq təşkilatlar tərəfindən irəli sürülmüş bir təklif idi, tövsiyə idi. Bu, seçki prosesinin şəffaflığını təmin etməli idi və bütövlükdə, çox müsbət, təqdirəlayiq bir addımdır. Ancaq əfsuslar olsun ki, praktikada Biz bunu tam şəkildə təmin edə bilmədik. Ona görə seçkilər günü bu, müəyyən problemlər yarada bilər. Biz gərək imkan verməyək ki, bu problemlər yaransın.

Belə olan halda, hesab edirəm ki, müxtəlif başqa variantlara da Biz fikir verməliyik və bu məsələdə yarana biləcək problemin aradan qaldırılması üçün konkret addımlar atmalıyıq. Hesab edirəm ki, müvəqqəti bir hal kimi və istisna hal kimi, səsvermə günü seçki bülleteni aldıqları zaman barmaqlarının gözə görünməyən mürəkkəblə işarələnməsinin mümkünlüyü məsələsinə baxmalıyıq.

Bu təklif müxtəlif beynəlxalq təşkilatlar tərəfindən də irəli sürülmüşdür. Düzdür, Biz hesab edirdik ki, buna böyük ehtiyac yoxdur. Çünki seçici vəsiqələrinin mövcudluğu artıq bu məsələni aradan qaldırırdı. Amma bir halda ki, seçici vəsiqələrinin paylanmasında biz problemlərlə üzləşdik, Mən hesab edirəm bu məsələyə baxmaq olar ki, seçkilərin şəffaf keçirilməsi heç bir şübhə doğurmasın. Onsuz da, Biz bilirik ki, Azərbaycanın siyasi spektrinin bir hissəsi seçkilərin nəticələrini tanımaq fikrində deyildir. Biz bunu mətbuatdan da eşidirik, müşahidə edirik və görürük ki, istənilən halda, daim seçkiləri uduzan qüvvələr bu dəfə də, yəqin seçkilərin nəticələrini tanımayacaqlar və müxtəlif bəhanələrlə Bizi ittiham etməyə çalışacaqlar. Bu hallar keçmişdə də olub və hadisələrin inkişafı onu göstərir ki, indiki seçkilərdə də, bu, istisna olunmur. Ümid edirəm ki, Bizim üçün yeni olan bu praktika, yeni barmaqların mürəkkəblə işarələnməsi əsassız ittihamları aradan götürəcəkdir. Ona görə, hesab edirəm ki, bu məsələ gərək müzakirə olunsun, buna baxılsın.

Eyni zamanda, şəxsiyyət vəsiqələrinin paylanılmasında da müəyyən problemlər var. Biz bu məsələ ilə ciddi məşğul olmuşuq və həmişə bizə söz verilmişdi ki, şəxsiyyət vəsiqələri vaxtında paylanılacaqdır. Ədalət naminə deməliyəm ki, doğrudan da, son aylar ərzində bu istiqamətdə çox gərgin iş gedirdi. Demək olar ki, şəxsiyyət vəsiqələrinin tam əksəriyyəti paylanılıbdır. Amma eyni zamanda, onu da bilirik ki, elə vətəndaşlar var, onların şəxsiyyət vəsiqələri yoxdur. Belə olan halda, biz gərək bu vəziyyətdən çıxış yolu arayaq, baxaq. İndi bəlkə Mərkəzi Seçki Komissiyası bu məsələyə baxmalıdır. Bəlkə Biz seçki günü köhnə pasportlarla səsverməyə icazə verək. Amma əlbəttə, hələ vaxta var və son bir neçə gün ərzində əgər şəxsiyyət vəsiqələri 100 faiz paylanmazsa, onda bu alternativ varianta da baxmaq olar.

Mən artıq qeyd etdim ki, seçkilərin Azərbaycanın normal inkişafı üçün çox böyük əhəmiyyəti var. Hansısa namizədə görə nə üçün biz özümüzü pis vəziyyətə salmalıyıq? Nə üçün? Ona görə bu məsələyə ciddi yanaşın. İndi hərə öz payını götürsün. Əgər kimsə bu işlərlə məşğuldursa, bu əməlləri yığışdırsın.

Yenə də deyirəm, bu hallar istisna xarakteri daşıyır. Amma tamamilə aradan qaldırılmalıdır. Seçki hüquqlarının pozulması ilə bağlı Mərkəzi Seçki Komissiyasından Baş Prokurorluğa daxil olan, cinayət tərkibli olması ehtimal edilən məlumatlar prokurorluq orqanları tərəfindən hərtərəfli araşdırılmalıdır. Lazım olarsa, cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi barədə əsaslandırılmış qərar qəbul olunmalıdır.

Eyni zamanda, bu seçkilərdə daha bir yenilik var, o da "exit-poll"dur. Bu da bizim üçün yeni bir üsuldur. Mənim Sərəncamımda "exit-poll"un keçirilməsi haqqında açıq-aydın göstərilibdir. Siz də çalışmalısınız ki, əgər lazım olarsa, "exit-pollu" keçirən qurumlara kömək edəsiniz. Əgər lazım olmazsa, ümumiyyətlə, bu məsələyə qarışmamalısınız. Əgər sizdən xahiş olunarsa ki, kömək edin, onu edin. Olmayacaqsa, qarışmayın. Bu, bizim üçün yeni bir üsuldur. İnkişaf etmiş ölkələrdə bu üsuldan çox geniş istifadə olunur. Azərbaycanda belə bir üsul ilk dəfə tətbiq ediləcəkdir.

Düzdür, prezident seçkiləri günü bəzi yerli təşkilatlar buna bənzər bir rəy sorğusu keçirmişlər. Ancaq bu dəfə "exit-poll"u xarici, beynəlxalq təşkilatlar keçirəcək, yəqin yerli təşkilatlar da keçirmək istəyəcəkdir. Ona görə heç bir maneçilik törədilməməlidir.

Nəhayət, hesab edirəm, Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməlidir ki, qeyri-hökumət təşkilatları, ictimai birliklər və fondlar haqqında Azərbaycan Respublikası Qanunundan nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan və ya başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatlarının seçkiləri müşahidə etməsinə qadağanın götürülməsi məsələsini müzakirə etsin. Bu məsələ də bəzi beynəlxalq təşkilatlar tərəfindən qaldırılıbdır. Hesab edirəm ki, Milli Məclis bu məsələyə də baxa bilər. Yəni bir sözlə, Biz hər şeyi etməliyik ki, heç kim zərrə qədər şübhə etməsin ki, bu seçkilər ədalətli və şəffaf keçiriləcək və Azərbaycan dövlətinin, hökumətinin, Prezidentinin niyyəti, məhz bundan ibarətdir. Ona görə nə lazımdırsa, onu da etməliyik. Ancaq eyni zamanda, hər şey qanun çərçivəsində olmalıdır. Heç kimə imkan verilməməlidir ki, qanunu pozsun, heç kimə hansısa xüsusi imtiyazlar yaradılmamalıdır. Bütün namizədlər, siyasi partiyalar və bloklar qanun çərçivəsində hərəkət etməlidirlər.

Azərbaycanda sərbəst toplaşmaq azadlığı təmin olunur. Azərbaycanın bütün bölgələrində, rayonlarında, bu baxımdan, heç bir problem yaradılmır və sərbəst toplaşmaq azadlığı təmin edilibdir. Ancaq Bakıda son müddət ərzində müxalifət tərəfindən süni problemlər yaradılıbdır. Onların da qarşısı alınıbdır. O hərəkətlərin də mənşəyi bəllidir. Çünki seçki kampaniyası başlanan gündən bütün siyasi qüvvələr, partiyalar da Qələbə meydanında öz mitinqlərini keçirirdilər. Həm müxalifət partiyaları, həm də Yeni Azərbaycan Partiyası. Yeni Azərbaycan Partiyasının Sədri kimi Mən şəxsən Qələbə meydanında partiyamızın mitinqində iştirak etmişdim.

Xatırlayırsınızsa, 2003-cü ilin prezident seçkiləri ərəfəsində bütün seçki təbliğatı Qələbə meydanında keçirilirdi. O vaxt heç kimdə sual doğmurdu ki, bu meydan yararsızdır, yaxud başqa meydan lazımdır. 2005-ci ilin seçki kampaniyası başlanan gündən müxalifət də, iqtidar da və başqa partiyalar da Qələbə meydanında çox sərbəst, azad şəkildə, asayiş qorunmaq şərtilə öz mitinqlərini keçirirdilər və heç bir sual da yaranmırdı. Nə üçün birdən-birə onların fikri dəyişdi? Biz bunun səbəbini bilirik. Səbəb ondan ibarətdir ki, bəri başdan bilirdilər, şəhər rəhbərliyi Cəfər Cabbarlı meydanında mitinqin keçirilməsinə imkan verməyəcəkdir. Beləliklə, süni şəkildə qarşıdurma yaranacaqdır. Müxalifət də hesab edirdi ki, bu qarşıdurma nəticəsində, onlar hansısa üstünlük əldə edəcəklər, yaxud da zorakılıqla qanunu poza biləcəklər. Süni şəkildə bu qarşıdurmaya gedirdilər.

Ancaq Azərbaycanda qanun hamı üçün eynidir. Bütün qanunsuz hərəkətlərin qarşısı çox ciddi şəkildə alınıbdır və gələcəkdə də alınacaqdır. Kim sərbəst toplaşmaq istəyirsə, mitinq keçirmək istəyirsə, buyursun, getsin müəyyən yerlərdə, meydanlarda o mitinqləri keçirsin.

Onu da qeyd etməliyəm ki, şəhər rəhbərliyi xoş niyyət addımı kimi, müxalifətə beş meydan təklif edibdir. Onların hamısı ərazi baxımından Cəfər Cabbarlı meydanından qat-qat böyükdür. Ona görə qanunsuz hərəkətlərə heç kim imkan verməyəcəkdir. Hesab edirəm ki, artıq müxalifət də bunu başa düşübdür. Bu gün Mənə dedilər ki, onlar növbəti qanunsuz mitinqə getməyəcəklər. Hesab edirəm, müsbət haldır ki, müxalifət də təkamül yolu ilə inkişaf edir. Artıq başa düşüb ki, Bizimlə bu dildə danışmaq olmaz. Biz heç bir qanunsuz hərəkətə yol verməyəcəyik.

Bir daha demək istəyirəm ki, seçkilərin normal keçirilməsi üçün hər cür şərait var. Biz əlimizdən gələni etməyə çalışmışıq ki, hər bir namizəd sərbəst fəaliyyət göstərsin, kampaniyasını aparsın və Azərbaycanda seçki praktikası təkmilləşdirilsin. Bu seçkilər keçiriləcəkdir. Azərbaycan xalqının iradəsi bu seçkilərdə əks olunacaqdır. Beləliklə, Azərbaycanın hərtərəfli, demokratik inkişafı üçün yeni imkanlar yaranacaqdır.

Sizə bir daha göstəriş verirəm ki, Mənim bütün tövsiyələrimi yerlərdə icra edəsiniz, heç bir qanun pozuntularına yol verməyəsiniz. Harada narahatedici hallar varsa, harada qanun pozulursa, dərhal operativ qaydada ya özünüz tədbirlər görün, ya da ki, Bizi məlumatlandırın. Bu qədər. Sağ olun.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 27 mart


## “Ölkənin inkişafı, insanların rifahı naminə”

### Ağcabədidə seçicilərlə görüş davam edir





Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Kəbirli kənd seçiciləri ilə görüşü keçirilib.

Görüşü Yeni Azərbaycan Partiyası Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin sədr müavini Nazim Bünyatov açaraq, seçiciləri prezidentliyə namizəd Cənab İlham Əliyevin seçki proqramı ilə tanış edib. O bildirib ki, ölkə başçısı İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə Azərbaycan çox böyük sürətlə inkişaf etmiş, qısa müddət ərzində, inqilabi sıçrayış əldə edilmişdir: “Yeni Azərbaycan Partiyası olaraq, biz 11 aprel 2018-ci il tarixdə keçiriləcək seçkilərə də “İlhamla irəli” şüarı ilə “Ölkənin inkişafı, insanların rifahı naminə” devizi ilə gedirik. prezidentliyə namizəd Cənab İlham Əliyevin seçki proqramının əsas məğzi ölkəmizi iqtisadi cəhətdən inkişaf etdirmək, xalqın maddi rifah halını yüksəltmək, respublikamızı beynəlxalq aləmdə tanıtmaqdan ibarətdir. Cənab İlham Əliyevin Prezidentliyi dövründə respublikamız çox böyük inkişafa imza atmışdır. Elə buna görə də, biz əminliklə deyə bilərik ki, seçicilər, bu xidmətlərinə görə, yenidən Cənab İlham Əliyevə səs verəcəklər”.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin təbliğat qrupunun üzvləri Əlizadə Nəcəfov, Eldəniz Qənbərov, Mehman Novruzov və İbrahim Həsənov çıxış edərək, 2003-2018-ci illərdə ölkədə bərqərar olan iqtisadi yüksəliş, regionların iqtisadi inkişafı Dövlət Proqramının uğurla həyata keçməsi, ümumi daxili məhsulun və ölkənin valyuta ehtiyatın artması, qeyri-neft sektorunun, kənd təsərrüfatının və sənayenin inkişafı barədə öz fikirlərini bölüşərək, bu nailiyyətlərin əldə edilməsində əvəzsiz xidmətlərinə görə, seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

Görüşdə seçicilər adından çıxış Kəbirli kənd sakinləri Zahid Musayev, Azadə Çobanova, Xankişi Bünyatov, Gülər Fətəliyeva, Reyhan Əliyeva, Dərgah Çobanov, Famil Orucov çıxış edərək, xalqın rifahı və ölkənin inkişafı naminə gördüyü böyük işlərə görə 11 aprel 2018-ci il tarixdə seçki məntəqələrinə gələrək, İlham Heydər oğlu Əliyevə səs verəcəklərini böyük ruh yüksəkliyi ilə bildirdilər.

**ZÜMRÜD**




## Seçicilər firavanlığa və sabitliyə səs verəcəklər

### Goranboy seçiciləri Azərbaycanın bugünkü inkişafının Prezident İlham Əliyevin adı ilə bağlı olduğunu vurğulayırlar



Yeni Azərbaycan Partiyası Goranboy rayon təşkilatı YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlərini davam etdirir. Kampaniya çərçivəsində rayon ərazisində keçirilən tədbirdə 2 mindən çox seçici iştirak edib.

Tədbiri giriş sözü ilə YAP Goranboy rayon təşkilatının sədri Elçin İsmayılov açaraq, son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin nəticələrindən bəhs edib. “Əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğu inkişaf siyasəti Onun layiqli davamçısı olan möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla və əzmlə davam etdirilir”- deyən E.İsmayılova görə, məhz bunun nəticəsi olaraq, Azərbaycan həm yerləşdiyi coğrafiyada, həm də, ümumilikdə, beynəlxalq aləmdə böyük nüfuz və mövqe qazanıb.



Rayon təşkilatının sədri, eyni zamanda, bildirib ki, Goranboy ictimaiyyəti, birmənalı şəkildə Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevi dəstəkləyir: “Rayon ictimaiyyəti dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf siyasətini böyük məmnunluqla qarşılayır. Böyük ruh yüksəkliyinin fonunda, qeyd edə bilərəm ki, Goranboy seçiciləri növbəti dəfə Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə etimad göstərəcəklər. Bununla seçicilər inkişafı, firavanlığı və sabitliyi seçmiş olacaqlar”.

Tədbirdə çıxış edən “Yeni Azərbaycan” qəzetinin Baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu bildirib ki, artıq seçicilərin böyük əksəriyyəti Cənab İlham Əliyevin son 15 ildə apardığı uğurlu və məqsədyönlü siyasətindən kifayət qədər məlumatlıdır: “Seçicilərlə görüşlərdə aydın olur ki, hər bir seçici partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevin fəaliyyəti ilə bağlı ən azı Onu təbliğ etməyə gedən insanlar qədər məlumatlıdır və dəqiq mövqeyə malikdir. Bu, Azərbaycan xalqının mövqeyidir. Son 15 il ərzində Cənab Prezidentin fəaliyyəti Azərbaycan xalqının gözləri önündədir. Ölkə rəhbərinin fəaliyyətinin şəffaf olması, Onun gördüyü işlərin böyüklüyü, xalqın isə bu barədə yetərincə məlumatlı olması Cənab Prezidentin xüsusi təbliğata ehtiyacının olmadığını göstərir. Dövlət başçısı Öz təbliğatını əməlləri ilə yüksək səviyyədə təşkil edib. Buna görə də, hesab edirik ki, Cənab İlham Əliyev Azərbaycan xalqının alternativsiz namizədidir”.

Milli Məclisin deputatı Elman Məmmədov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasətin Azərbaycanın beynəlxalq mövqeyini möhkəmləndirdiyini diqqətə çatdırıb. “Azərbaycanın daxili və xarici siyasəti milli maraqlara əsaslanır, ölkəmiz, xüsusilə də, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində qətiyyətli mövqe nümayiş etdirir”- millət vəkili tərəfindən qeyd olunub.

E.Məmmədov əlavə edib ki, şübhəsiz, vətəndaşlar bu inkişafın, sabitliyin davam etməsi üçün yenə də Cənab İlham Əliyevə səs verəcəklər. Çünki ölkəmizi parlaq gələcəyə apara biləcək lider, məhz Cənab İlham Əliyevdir.

Daha sonra çıxış edənlər - təbliğat qrupunun üzvləri Tariyel Abbasov, Ülkər Hümbətova Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlu nəticələrindən bəhs ediblər. Onlar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin növbəti dəfə əzəmətli qələbə qazanacağına inandıqlarını bildiriblər.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500